*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

10 may 2024-cü il №14 (9072) www.muallim.edu.az muallim@media.edu.az

**Ulu Öndər hakimiyyətə gəldiyi ilk vaxtlardan təhsilin inkişafına böyük diqqət yetirib**

# BÖYÜK AZƏRBAYCANLI

**Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən AZƏRBAYCANLIYAM!**



## Heydər Əliyevin xilaskarlıq missiyası

XX əsr bəşəriyyət tarixinin dönüş mərhələsi kimi qəbul edilir və həmin əsrin əvvəllərindən sonuna kimi baş verən hadisələrin fonundakı mənzərənin yaratdığı qənaətlərlə razılaşmamaq mümkün deyil. Bu, bir əsrdə iki dünya, çoxəsrlik imperiya sərhədlərinin dəyişməsi, saysız-hesabsız məhəlli müharibələrinin gətirdiyi ağlagəlməz itkilərin fonunda xalqların özünü göstərən iddiası ilə şərtlənən situasiya idi. Məhz belə oxşar vəziyyətlərdə hər bir xalqın öz liderini axtarmaq istəyi zərurətə çevrilir.

Liderlik təkcə üzləşdikləri şəraitin öhdəsindən uğurla gəlmək deyil, həm də onların ətrafında cərəyan edən tarixin gedişatını dərindən dəyişdirmək bacarığıdır. Bu bacarıqlarını XX əsrin ikinci yarısında ortaya qoyan, xalqını onun ən böyük iradəsi olan dövlətinə qovuşduran az sayda dövlət xadiminin adı nəinki xalqının, ümumilikdə dünya tarixinin örnək sayılan səhifələrinə yazılıb.

Ardı səh. 3

## Heydər Əliyevin 53 il əvvəlki məruzəsində təhsil məsələləri

...İndi respublikada təqribən 1 milyon 700 min adam bütün təhsil növləri ilə əhatə olunmuşdur; 80 mindən çox müəllim və istehsalat təlimi ustası, ali məktəb və texnikum müəllimlərinin 6 min nəfərlik dəstəsi böyüməkdə olan nəslin tərbiyəsi ilə məşğuldur.

Keçən il ümumtəhsil məktəbləri müəllimlərinin biliyinin yoxlanması nəticəsində onların bəziləri orta məktəb proqramı həcmində yoxlama yazı işlərində qeyri-kafi qiymət almışlar. Bu cür müəllim şagirdə nə verə bilər?

Son iki ildə respublikada 19 məktəb yaradılmışdır. Həmin məktəblərdə 9 min adam ixtisasa yiyələnir və orta təhsil alır. 1975-ci ildə bizdə 48 texniki peşə məktəbi yaradılmalı və bu məktəblərdə 40 mindən çox adam təhsil almalıdır.

Bax səh. 2



Müsahibimiz II Dünya müharibəsi iştirakçısı, 103 yaşlı Tamleyxa Həsənovdur

## “Müəllim olmağımla həmişə fəxr etmişəm”

Bəşər tarixinin ən amansız müharibəsi hesab edilən II Dünya müharibəsi milyonlarla insanın həyatına son qoydu. Bu müharibənin fəsadları ölkəmizdən də yan keçmədi. Xalqımız faşizmə qarşı mübarizədə həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq və əzmkarlıq göstərmişdir. Altı yüz mindən çox həmvətənlimiz bu müharibədə iştirak etmiş, onlardan 300 minə yaxını qəhrəmancasına həlak olmuşdur. Azərbaycan müəllimi hər dövrdə fədakarlıq nümunəsi göstərmişdir. Həmin dövrdə müəllim kimi cəbhəyə yollanan, öz şagirdlərinə əsl qəhrəmanlıq nümunəsi göstərən pedaqoqlarımız var idi. Belə pedaqoqlardan biri də 103 yaşlı müharibə veteranı, uzun illər təhsil sahəsində çalışan Tamleyxa Həsənovdur. Tamleyxa Həsənov 1921-ci ildə Culfa rayonunun Ərəfsə kəndində anadan olub. Onun arzusu müəllim olmaq idi. Elə bu məqsədlə də T.Həsənov Naxçıvanda Pedaqoji Texnikuma daxil olur. Texnikumu bitirdikdən sonra kənd məktəbində müəllim işləyən qəhrəmanımız qısa müddət sonra cəbhəyə yollanır. 1942-1945-ci illərdə müharibədə iştirak edən və ağır yaralanan Tamleyxa müəllimə öz bilik və bacarığına görə kiçik hərbi rütbə də verilir.

Bax səh. 5

## MƏKTƏBDƏ BAĞÇA YARADIB QRANT QAZANDILAR



**Alternativ məktəbəqədər sinifdən reportaj**

Bax səh. 6

# 1934 “Azərbaycan müəllimi” 2024



## Ulu Öndər hakimiyyətə gəldiyi ilk vaxtlardan təhsilin inkişafına böyük diqqət yetirib

**Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu illərdə “Azərbaycan müəllimi” qəzetində çoxlu çıxış, məruzə və nitqləri dərc olunub. Ulu Öndərin siyasi hakimiyyətə gəlişinin ilk illərində – 1971-ci ildə qəzetimizdə dərc olunmuş bir məruzəsi xüsusilə diqqəti cəlb edir. Həmin məruzəsində Heydər Əliyev ölkədə təhsilin vəziyyətinin geniş təhlilini verib və qarşıda duran vəzifələri göstərib. Məruzənin təhsillə bağlı hissəsindəki bir çox məsələlərin bu gün də aktuallıq kəsb etdiyini və oxucularda maraq doğuracağını nəzərə alıb qəzetimizin 1971-ci il 3 noyabr tarixli 88-ci nömrəsində dərc olunmuş həmin məruzədən bəzi məqamları təqdim edirik.**

# Heydər Əliyevin 53 il əvvəlki məruzəsində təhsil məsələləri

...Məktəblərin şəbəkəsi ildən-ilə genişlənir, şagirdlərin sayı artır. İndi respublikada təqribən 1 milyon 700 min adam bütün təhsil növləri ilə əhatə olunmuşdur; 80 mindən çox müəllim və istehsalat təlimi ustası, ali məktəb və texnikum müəllimlərinin 6 min nəfərlik dəstəsi böyüməkdə olan nəslin tərbiyəsi ilə məşğuldur...

Məktəblilərin təlim və tərbiyəsinin keyfiyyətində ciddi nöqsanlar vardır. Bəzi rayonlarda, məsələn, Kəlbəcər, Laçın, Qusar, Qutqaşen, Sabirabad rayonlarında sinifdə qalanların sayı bütün məktəblilərin 5-7 faizini təşkil edir. Şagirdlərin sinifdə qalması pedaqoji kollektivlərin işində ciddi qüsurdur. Bu, şagirdlərin məktəbdən yayınmasına, onların təhsilinin yarımçıq qalmasına səbəb olur, bəzən də uşaqları bədbəxt edir.

Bir sıra məktəblərdə şagirdlərin faktik bilik səviyyəsinin hesabat məlumatlarına uyğun gəlməməsi bizi çox narahat edir. Bu il respublikanın ali məktəblərinə qəbul imtahanları vermiş abituriyentlərin xeyli hissəsinin qeyri-kafi qiymət alması faktı məgər bunu sübut etmirmi?

Medal və fərqlənmə diplomu alanların bir çoxunun ali məktəblərə qəbul imtahanlarında əla qiymət ala bilməməsi, bəzilərinin isə, hətta iki alması faktı da məktəblərin və maarif orqanlarının işində ciddi nöqsanlar olduğunu göstərir. Təşviş hissi doğuran cəhət budur ki, medal alan, ali məktəblərə qəbul imtahanlarında yarıtmaz cavab verən gənclərin bir çoxunun valideynləri xalq maarif şöbələrinin işçiləri, məktəb direktorları və müəllimləri, şəhər və rayon təşkilatlarının rəhbər işçiləridir. Yoxlama nəticəsində Zaqatalada, Şamxor, Abşeron, Balakən, Xanlar və başqa rayonlarda belə faktlar aşkara çıxarılmışdır.

Bu işi diqqətlə araşdırmaq və layiq olmadıqları halda şagirdlərə medal və diplom verilməsində müqəssir olanların hamısını ciddi cəzalandırmaq lazımdır.

Məktəblilərin bilik səviyyəsinin aşağı olması və qeyri-müvəffəq oxuması müəllimlərin bir qisminin zəif hazırlığının və yarıtmaz işləməsinin nəticəsidir. Ayrı-ayrı müəllimlərin elmi və metodiki sahələrdə geri qalması, biliyini artırmaq istəməməsi faktlarına göz yummağa pedaqoji kollektivlərin, ictimaiyyətimizin haqqı yoxdur. Keçən il ümumtəhsil məktəbləri müəllimlərinin biliyinin yoxlanması nəticəsində onların bəziləri orta məktəb proqramı həcmində yoxlama yazı işlərində qeyri-kafi qiymət almışlar. Bu cür müəllim şagirdə nə verə bilər?..

Müəllimlər hazırlanmasının planlaşdırılması işindəki səhvlər, ali məktəb məzunlarından bir qisminin öz borcunu yerinə yetirməməsi - təyinat aldığı yerdə işləməməsi nəticəsində bir çox məktəb pedaqoji kadrlarla tam təmin olunmamışdır. Halbuki Bakıda, başqa şəhərlərdə, bəzi rayon mərkəzlərində müəllimlərin əksəriyyəti öz ixtisası üzrə işləmir. Onlar çox vaxt mağazalarda, yeməkxanalarda və bufetlərdə işləyir və ya xalq maarifi orqanlarında illərlə uçotdadırlar.

Orta təhsil verən texniki peşə məktəbləri sisteminin inkişaf etdirilməsi ən perspektivli formalardan biridir. Texniki peşə məktəbləri öz şagirdlərində yüksək istehsalat - texnika mədəniyyəti tərbiyə etməklə yanaşı, onların geniş ümumtəhsil hazırlığını da təmin etməyə borcludur.

Son iki ildə respublikada 19 məktəb yaradılmışdır. Həmin məktəblərdə 9 min adam ixtisasa yiyələnir və orta təhsil alır. 1975-ci ildə bizdə 48 texniki peşə məktəbi yaradılmalı və bu məktəblərdə 40 mindən çox adam təhsil almalıdır...

Demək lazımdır ki, bu yaxınlaradək respublikada ali məktəblərdə qəbul imtahanlarının düzgün, obyektiv keçirilməsinin ictimai-siyasi əhəmiyyəti lazımınca qiymətləndirilmirdi. Bu iş düşünülmədən və qeyri-mütəşəkkil aparılırdı, çox vaxt imtahan və qəbul komissiyalarının tərkibinə səriştəsiz, bəzən də natəmiz adamlar daxil edilirdi. Onlar tam nəzarətsizlik üzündən, bəzən də ali məktəblərin ayrı-ayrı rəhbərlərinin köməyi sayəsində özlərinin vəziyyətindən sui-istifadə edib müəyyən olunmuş qəbul qaydasını pozur, çox vaxt bunun üçün rüşvət alırdılar.

Azərbaycan KP MK belə bir vəziyyətə dözə bilməzdi. MK imtahanların hazırlanması və keçirilməsi üçün ali məktəb rektorlarının partiya təşkilatları katiblərinin, Ali və Orta İxtisas Təhsili Nazirliyi rəhbərlərinin şəxsi məsuliyyətini artırmaq üçün tədbirlər gördü, bu işi nəzarət altına aldı.

Qəbul imtahanlarının keçirilməsində qayda yaradılması, abituriyentlərin biliyinin obyektiv qiymətləndirilməsi öz nəticəsini verdi: tələbələrin ictimai tərkibi yaxşılaşdı, indi bir qayda olaraq, ali məktəblərə və texnikumlara doğrudan da tələb edilən biliklərə malik olan oğlan və qızlar daxil olurlar. Lakin bu işdə qaydanın pozulması, sui-istifadə və prinsipsizlik hallarını tamamilə ləğv etmək üçün hələ çox iş görülməlidir...

Azərbaycan KP MK belə hesab edir ki, Ali və Orta İxtisas Təhsili Nazirliyi, ali məktəblərin rektorluqları və partiya təşkilatları bu məsələləri dərindən araşdırmalı, ali məktəbləri səriştəsiz, təsadüfi, vicdansız adamlardan xilas etməlidirlər.

Müsabiqələr və attestasiyalar müəllimlərin tərkibini möhkəmlətmək və yaxşılaşdırmaq üçün təsirli formalardan biridir. Bu işdəki formalizmə və qaydaların açıqca pozulması hallarına son qoymaq lazımdır. Sirr deyil ki, çox vaxt müsabiqələr haqqında yalnız zahiri rəsmiyyət xatirinə məlumat verilir, əslində isə namizədlərin məsələsi qabaqcadan həll edilir. Bəzi ali məktəblərdə illərlə attestasiya keçirilmir. Keçirildikdə də çox vaxt bu və ya digər müəllimin işinə obyektiv qiymət verilmir.

Kafedraları keyfiyyətcə təzələmək və möhkəmlətmək üçün müsabiqələrdən və attestasiyalardan lazımınca istifadə etmək, ali məktəblərin qapılarını yalnız həqiqətən layiq olanların üzünə açmaq lazımdır.

Ali və Orta İxtisas Təhsili Nazirliyi, bir çox ali məktəblərin və elmi tədqiqat institutlarının rəhbərləri əvəzçiliyi məhdudlaşdırmaq haqqında müvafiq qərarlardan irəli gələn vəzifələri hələ heç də tamamilə yerinə yetirməmişlər. Bir sıra hallarda əvəzçiliklə işləməyin dövlət nöqteyi-nəzərindən məqsədə uyğun olub-olmadığını nəzərə almadan ona icazə verilir. Əvəzçilik gənc elmi kadrların və müəllim kadrlarının irəli çəkilməsinə çox zaman əngəl törədir, ayrı-ayrı alimlərin bu və ya digər elm sahələrini inhisara götürməsinə doğru aparır...

**“Azərbaycan müəllimi”,**
*3 noyabr 1971-ci il*

**Medal və fərqlənmə diplomu alanların bir çoxunun ali məktəblərə qəbul imtahanlarında əla qiymət ala bilməməsi, bəzilərinin isə, hətta iki alması faktı da məktəblərin və maarif orqanlarının işində ciddi nöqsanlar olduğunu göstərir.**

**Məktəblilərin bilik səviyyəsinin aşağı olması və qeyri-müvəffəq oxuması müəllimlərin bir qisminin zəif hazırlığının və yarıtmaz işləməsinin nəticəsidir. Ayrı-ayrı müəllimlərin elmi və metodiki sahələrdə geri qalması, biliyini artırmaq istəməməsi faktlarına göz yummağa pedaqoji kollektivlərin, ictimaiyyətimizin haqqı yoxdur.**

**Orta təhsil verən texniki peşə məktəbləri sisteminin inkişaf etdirilməsi ən perspektivli formalardan biridir. Texniki peşə məktəbləri öz şagirdlərində yüksək istehsalat - texnika mədəniyyəti tərbiyə etməklə yanaşı, onların geniş ümumtəhsil hazırlığını da təmin etməyə borcludur.**

**Qəbul imtahanlarının keçirilməsində qayda yaradılması, abituriyentlərin biliyinin obyektiv qiymətləndirilməsi öz nəticəsini verdi: tələbələrin ictimai tərkibi yaxşılaşdı, indi bir qayda olaraq, ali məktəblərə və texnikumlara doğrudan da tələb edilən biliklərə malik olan oğlan və qızlar daxil olurlar.**

**Müsabiqələr və attestasiyalar müəllimlərin tərkibini möhkəmlətmək və yaxşılaşdırmaq üçün təsirli formalardan biridir. Bu işdəki formalizmə və qaydaların açıqca pozulması hallarına son qoymaq lazımdır.**

# BÖYÜK AZƏRBAYCANLI

## Heydər Əliyevin xilaskarlıq missiyası



**İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.**

**Heydər ƏLİYEV**

Əvvəli səh. 1

Onların içində Fransa siyasət və dövlət xadimi, II Dünya müharibəsində Fransa müqavimətinin simvoluna çevrilən, 1959-1969-cu illərdə bu ölkənin ilk prezidenti olan Şarl de Qoll, günümüzə qədər miqyasına, həmçinin insan itkiləri və dağıntılarına görə bənzəri olmayan müharibədən ağır məğlubiyyət, sağalmaz görünən yaralarla çıxan məğlub Almaniyanın kansleri, Xristian Demokratik Birlik Partiyasının qurucularından biri Konrad Adenauerin adlarını xatırladaq. Onlardan biri - Adenauer məğlubiyyətinin mənəvi yükünü qəbul edəcək qədər təvazökarlığı ilə bərabər, xalqını "yenidən başlamaq cəsarəti" ilə silahlandıracaq qədər gücü ilə dünyanı heyrətləndirdi. Etdikləri ilə siyasətin ancaq "mümkün olanların sənəti" deyil, iradə sənəti olduğunu təsdiq edən bütün liderlər tarixə beləcə - dərin, cəsarətli, dəyərlər və baxışlarına sadiq şəxsiyyət kimi daxil olurlar.

XX əsrin 80-ci illərinin sonlarında, avantürist "perestroyka" siyasətinin ilk fəsadları görünənə, o vaxtlara qədər "dünyanın əminlik adası" hesab olunan SSRİ-nin iki subyektindən biri Ermənistan SSR ərazi iddiaları ilə Azərbaycan SSR-ə qarşı elan olunmamış müharibəyə başlayana qədər bunlar müasir azərbaycanlıların tarix kitablarından oxuduğu və bəlkə də çoxlarının adi hesab etdiyi faktlardan sayılırdı. Min illərlə bu ərazilərdə yaşamış, 1918-ci ildə milli dövlətini elan etsə də, 23 aydan sonra bolşevizmin ilhaqından sonra nominal dövlətin sakinləri olan bütün azərbaycanlılar XIX və XX əsrlərdə onların tarixi vətənlərində yerləşdirilən ermənilərin separatçı, İttifaq hökumətinin ikiüzlü mövqeyinə etirazını nümayiş etdirdi.

Bu, Azərbaycan və onun vətəndaşları üçün başa çatmaqda olan əsrdə üzləşilən qanlı, dünyanın ən əxlaqsız və hiyləgər xüsusi xidmət orqanlarının hazırladığı bir qərinəlik sınağının ilkin mərhələsi idi. Ardınca baş verən hadisələr-azərbaycanlıların "radikal", "cinayətkar" obrazının təqdimatına xidmət etməli Sumqayıt və Bakı iğtişaşları, bütöv bir xalqda xof yaratmaq üçün törədilən 20 Yanvar, Xocalı, Ağdaban, Qaradağlı dəhşətləri göstərirdi ki, xalq birmənalı seçim qarşısındadır. Bu hadisələrin davamı artıq dövlət müstəqilliyini elan edən Azərbaycan Respublikasının dövlət sərhədlərini keçərək, onun ərazilərinin 20 faizinin işğalı, 1 milyondan çox vətəndaşının məcburi köçkünə çevrilməsi ilə inkişaf edirdi. Perspektivdə ya milli qüruru, min illər ərzində qazanılan dəyərləri və o dəyərlərin məskəninə çevirdiyi Vətəni itirmək, ya da bu keşməkeşli yollardan ləyaqətlə keçərək özünü təsdiq etmək dayanırdı. İnsanlar çaşqınlığın doğurduğu ümidsizliklə baş-başa qalmış, situasiyanın yaratdığı dalğaların hakimiyyətə gətirdiyi "vətənpərvər qüvvələrin tətbiq etməyə çalışdığı "dağınıq idarəetmə" taktikası, imperiya maraqları ilə regionda at oynadan dövlətlərin ikili standartları işğalçı Ermənistan Respublikasını daha da şirnikləndirir və onun cəzasızlıq şəraitində eyforiyaya uğramış rəhbərliyi ölkəmizə ən yaxşı halda "güzəştə gedilən ərazilər müqabilində sülh" təklif edirdi. Üstəlik, Azərbaycanda hakimiyyətdə olan marginal qüvvələrin səriştəsizliyinin yaratdığı vətəndaş müharibəsinin bir addımlıqda olması xalqa nicat yolunun Heydər Əlirza oğlu Əliyevin ölkə rəhbərliyinə gəlməli olduğunu diktə edirdi. Bunu şərtləndirən amillər isə məntiqi qanunauyğunlaqlardan qidalanırdı.

Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri gəldikdən az sonra nəinki azərbaycanlılar, Sovet Sosialist Respublikaları İttifaqında yaşayan bütün xalqların nümayəndələri xarizmatik ölkə rəhbərinin yaradıcı iş metodunu və onun nəticələrini gördü. Bu işlərin nəticəsi idi ki, Azərbaycan rəhbəri az müddətdən sonra ucsuz-bucaqsız kimi görünən nəhəng ölkənin siyasi rəhbərləri cərgəsində dayandı. Böyük dövlət xadiminin strateji hədəflərə istiqamətlənən siyasətinin mahiyyətində o vaxtacan daha çox aqrar ölkə kimi tanınan ölkəni həm də sənaye respublikasına çevirməyə xidmət edən xətt ilə bərabər, mənsub olduğu xalqın dili, tarixi, ədəbiyyat və incəsənəti, elm və təhsili, ümumiyyətlə, sosial sahəyə qayğısı konkret əməllərlə fakta çevrilirdi. 1982-ci ilə, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Büro üzvü seçilənə, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini vəzifəsinə təyin olunana qədər Ümummilli Lider Azərbaycanın tarixində silinməz izlər yaratdı. 1987-ci ilin payızında, ölkəmizdə erməni separatizminin meydanda görünməsi üçün işarə verildiyi məqamlarda SSRİ-nin avantürist rəhbəri Mixail Qorbaçovun apardığı siyasətlə razılaşmayan Heydər Əliyev istefa verdi. Xatırlatmağı lazım bilirik ki, bu istefanın əsas səbəbi hələ 1985-ci ilə qədər də adı gələcək İttifaqın rəhbərləri sırasında çəkilən azsaylı dövlət xadimlərindən biri, dünya mətbuatında "Kremlin parlayan ulduzu" kimi təqdim edilən Heydər Əliyevin geniş erudisiyasına Qorbaçovun həsədi idi.

Ümummilli Liderin istefadan sonra Moskvada deyil, doğma Azərbaycanında yaşamaq planları isə son 5 ildə 5 dəfə dəyişən ölkə rəhbərliyində narahatlıq yaratdığından Ulu Öndər doğulduğu Naxçıvanda yaşamaq, Azərbaycanın tarixində şərəfli tarix yazmış guşəsinin qayğılarına şərik olmaq istəyərək buranı seçdi. Az sonra Naxçıvan seçicilərinin mütləq əksəriyyətinin iradəsi ilə Naxçıvan Muxtar Respublikasının Milli Məclisinə gələn Ümummilli Lider Məclisin sədri seçildi. Bu, həmin vaxtlar idi ki, Ermənistan Respublikasının blokadada saxladığı diyar işğalçılara qarşı mübarizəni kiçik resursları ilə aparırdı. Qısa müddətdə Türkiyə və İran dövlətlərinin siyasi rəhbərliyi ilə əlaqələr yaradan Ulu Öndər muxtar respublika üçün həyati əhəmiyyətli mənbələr yarada bildi. 1993-cü il iyun ayının əvvəllərində Azərbaycan xalqının üzbəüz qaldığı vətəndaş müharibəsi qorxusu ölkə rəhbərliyi ictimai rəylə hesablaşaraq Ümummilli Lideri Bakıya dəvət etmək məcburiyyətində qaldı. Böyük siyasətçi dövlət xadimini paytaxta gətirmək üçün o zamankı dövlət başçısının təyyarəsi Naxçıvana uçdu.

Bununla Azərbaycan Respublikasının gələcək taleyini müəyyənləşdirəcək Böyük Qayıdış salnaməsinin ilk səhifələri böyük siyasətçi, dünyanın hörmət və ehtiramla qəbul etdiyi dövlət xadimi Heydər Əliyevin qəbul etdiyi qərarlar, atdığı addımlarla yazılırdı. Bu yazılarla Ümummilli Lider siyasətin mümkün olanların sənəti deyil, iradə sənəti olduğunu təsdiq etməklə bərabər, təkcə dövlətin deyil, o dövləti quran xalqın tarixində həmişəlik qalacaq şərəfli səhifələrin müəllifinə çevriləcək. Həmin məqamlardasa Ümummilli Lider Azərbaycan Respublikası Milli Məclisinin sədri seçiləcək, az müddətdən sonra "ölkənin astanasında olan vətəndaş müharibəsinin içəri keçməməsi üçün" postunu tərk edərək gecə saatlarında təyyarəsi ilə "naməlum istiqamətə uçan" dövlət başçısının səlahiyyətlərinin icrasına başlayacaq. Baş verənlərin fonunda ölkədəki xaosdan istifadə edərək ayrı-ayrı qüvvələrin yaratdığı silahlı dəstələrin hərəkətə keçməsi vətəndaşlarda səksəkə və xof yaradırdı. Bu, təhlükəli amil idi və Prezident səlahiyyətlərini icra edən Heydər Əliyev dövlət televiziyası ilə canlı olaraq xalqa müraciətində insanlara üz tutur, vəziyyətin çətinliyindən, lakin ümidsiz olmadığından danışırdı.

Ümummilli Lider xalqa müraciətində xalq və dövlət qarşısındakı həll olunası məsələləri müxtəlif rakurslardan izah edir və bu məsələlərin həlli yollarından yox, yeganə yolundan söz açırdı. O yolun xalqımızın bütün təbəqələrinin, həmçinin ölkədəki siyasi partiyaların tutub da nümayiş etdirəcəyi mövqedən keçəcəyini deyən Heydər Əliyev bütün həyatının və o həyat boyu qazandığı zəngin təcrübəsinin verdiyi dərslərdən çıxan qənaətini bütün Azərbaycan vətəndaşları ilə bölüşürdü: *"İndi Azərbaycan Respublikası üçün, Azərbaycanın dövlətçiliyi üçün birlik, milli həmrəylik, milli birlik, vətəndaş birliyi hava, su kimi lazımdır. Biz gərək torpaqlarımızı müdafiə edək, gərək işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək, Azərbaycanın müstəqilliyini qoruyub saxlayaq" (Heydər Əliyevin Azərbaycan milli televiziyası ilə xalqa müraciəti"ndən. "Xalq qəzeti", 24 avqust 1993-cü il).*

Bu, şəxsi təfəkküründən süzülən, natiqlik məharəti ilə düşündüklərini öz doğmaları ilə bölüşən böyük dövlət xadiminin real həqiqətlər haqqında dedikləri sözlər, ifadə etdiyi fikirlər idi. Ümumiyyətlə, çox dəyərli oxucular üçün Ümummilli Liderin natiqlik məharətini yaradan keyfiyyətləri araşdırdığım müddətdə həmin məharəti şərtləndirən başlıca keyfiyyətin səmimiyyət olduğunu deyə bilərəm. Onun çıxış və replikalarının cəlbediciliyinin arxasında güclü müşahidə qabiliyyəti, çoxlu mütaliə və həyat təcrübəsinin dayandığı şübhəsizdir. Heydər Əliyev harada çıxış edirsə etsin, bu, şəhid ailələri, yaxud ölkəyə rəhbərlik etdiyi bütün vaxtlarda tez-tez getdiyi müxtəlif təşkilatlarda görüşdüyü sadə insanlar, fərqli beynəlxalq təşkilatların ən uca kürsülü auditoriyasını dolduran diplomatlar, fərqi yoxdur, çıxışı diqqətlə dinlənilirdi. Ölkənin ziyalıları ilə görüşündə də Ümummilli Lider səmimi idi və bu səmimiyyətlə, vəziyyətin nə qədər mürəkkəbləşdiyini izah edir, insanların öləziməkdə olan ümidlərini alovlandırırdı.

Məsələlərə yanaşmada praqmatizmi ilə seçilən Heydər Əliyev həmişə olduğu kimi, yenə həqiqəti deməyi lazım bilirdi. Böyük dövlət xadimi dövlət müstəqilliyinin elan olunmasının dövlətçilik anlayışını tam ehtiva etmədiyini, hətta həmin dövlətin beynəlxalq təşkilatlar tərəfindən tanınmasının da kifayət etmədiyini, bunun üçün birinci növbədə dövlət institutlarının yaradılaraq işlək hala gətirilməsini, işğal edilən torpaqlarımızın azad edilməsinin zəruriliyini qeyd edirdi. Ən başlıcası, Ümummilli Lider əminliklə istənilən xalqın dövlət quruculuğunda ayrı-ayrı şəxsiyyətlərin böyük rolundan danışsa da, onun sosial-siyasi prosesin nəticəsi olaraq qəbul edilməsini qeyd edirdi. Bunlarla bərabər, dünya siyasətçiləri arasında mütləq çəkiyə malik Heydər Əliyev müstəqilliyini qorumaqla yanaşı, dövlət institutlarının mükəmməl işlək mexanizminin təminatından əlavə ona xalq etimadını əsas faktorlardan biri hesab edirdi.

Azərbaycan Respublikasına rəhbərliyinin birinci mərhələsində mənsub olduğu xalqın mental keyfiyyətlərinin yüksəldilməsində, onun şərəfli tarixinin yazılmasında xidməti olan hər kəsə layiqli qiymət verən Heydər Əliyevin bu istiqamətdə fəaliyyəti nəinki ölkəmizdə, həmçinin keçmiş İttifaqda çoxlarına bəlli gerçəkliklərdəndir. Bunların sırasında Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi, bu çərçivədə təkcə Azərbaycan deyil, dünya ədəbiyyatının korifeylərindən olan müdrik azərbaycanlının əsərlərinin Moskvada rus dilində nəşri ilə bağlı qərarın qəbul edilməsi çoxlarının xatirəsindədir. Ümummilli Liderimiz SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini vəzifəsində çalışdığı vaxtlarda belə "Xəmsə"yə daxil olan əsərləri rus dilində və ayrı-ayrılıqda nəşr etdirməsi Nizami Gəncəvi yaradıcılığı ilə bərabər, xalqına məhəbbətindən xəbər verirdi. Qeyd edək ki, bu, Heydər Əliyevin həyatı boyu daşıyıcısı olduğu dəyərləri nümayiş etdirən epizodik hadisə deyil, sistemləşərək fakta çevrilən hadisələrdəndir. Bunların sırasında Şərq poeziyasının əvəzsiz nümayəndələrindən Məhəmməd Füzuli, "Əkinçi" ilə Azərbaycan mətbuatının əsasını qoyan Həsən bəy Zərdabi, Şərqin Şekspiri adlandırılan Hüseyn Cavid, böyük siyasi xadim olmaqla bərabər, görkəmli dramaturq-yazıçı və Sovet Azərbaycanının ilk rəhbəri, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 4 sədrindən biri Nəriman Nərimanov, böyük yazıçı-dramaturq, publisist, Şərq və Asiyanın böyük ərazilərində populyar "Molla Nəsrəddin" jurnalının naşiri Cəlil Məmmədquluzadə, satira janrında şeirlərin klassik nümunələrini yaradan Mirzə Ələkbər Sabir, Yaxın Şərqdə operanın banisi, bəstəkar və əvəzsiz publisist, Azərbaycan Respublikası Dövlət Himninin müəllifi Üzeyir Hacıbəyov, dramaturq və şair Cəfər Cabbarlı və onlar, yüzlərlə incəsənət və ədəbiyyat nümayəndəsinin adının əbədiləşdirilməsi, əsərlərinin qorunub saxlanılması və oxuculara əlçatan olması üçün mümkün olanların hamısını edən Heydər Əliyev etdikləri ilə nümunə yaradırdı. O, əsərləri ilə bərabər ideyaları da regionumuzda, həmçinin Yaxın Şərq və Orta Asiyada populyar olan İmadəddin Nəsimi ilə bağlı bu gün haqqında dünya azərbaycanlılarının yaxşı bildiyi bir hadisə barədə xatırladıqlarını belə bölüşürdü: *"Tariximizdə olan şəxsiyyətlərin hamısı bizim üçün qiymətlidir. Tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq. Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır" (Heydər Əliyevin ziyalılarla görüşündəki çıxışından. "Xalq qəzeti", 22 sentyabr 1993-cü il).*

Seçdiyimiz sitatlar böyük dövlət adamının ikinci dəfə Azərbaycana rəhbərlik etmək üçün ona güvənən, etimad edən xalqımızın israrlı dəvətlərindən sonra o zamankı iqtidarın paytaxta dəvət etmək məcburiyyətində qaldığı Heydər Əliyevin müxtəlif toplantılardakı çıxışlarından və yaxud dövlət televiziyası ilə xalqa etdiyi müraciətlərindəndir. Bu çıxışları qarşıda Azərbaycan Respublikasına növbədənkənar Prezident seçkilərinin keçiriləcəyi və həmin seçkilərdə iştirakı seçicilərin böyük əksəriyyəti tərəfindən gözlənilən Heydər Əliyevin seçkiqabağı platformasının tərkib hissəsi kimi də qəbul etmək olar. Həmin platformada Ümummilli Lider üçün birinci yerdə dayanan məsələnin Azərbaycanla bağlı müxtəlif niyyətlərini gizlətməyən dövlətlərin açıq-aydın siyasi və hərbi dəstəyi ilə Ermənistan Respublikasının ölkəmizə qarşı başladığı elan olunmamış müharibənin dayandırılması, müvəqqəti atəşkəsə nail olmaq, dağıdılmış iqtisadiyyatı reanimasiya vəziyyətindən çıxarmaq, iki il ərzində adı olan, lakin hələ də birmənalı mərkəzi hakimiyyətə tabe etdirilməyən, ayrı-ayrı şəxslərin təsir dairəsində dayanan Azərbaycan Silahlı Qüvvələrini yenidən qurmaq və ən vacibi, insanlarımızda sabaha ümid yaratmaq planlarını görmək mümkündür. Bu müddətdə Ümummilli Lider Azərbaycana qarşı işğalçı müharibənin dayandırılması istiqamətində regional və beynəlxalq güc olan dövlətlər, habelə ayrı-ayrı təşkilatlarla intensiv əlaqələr qurur, məsləhətləşmələr aparırdı. Dövlətin çöküşünü şərtləndirəcək faktorların aradan qaldırılması işindəki fəaliyyətin gərgin qrafikinə baxmayaraq, Ulu Öndər milli dəyərlərin əsasında dayanan məsələləri ikinci plana keçirmirdi. Bu, Azərbaycanın gələcək inkişaf və dayanıqlılıq faktorlarında dominant qüvvə hesab olunan gəncliklə bağlı görülməsi zəruri olan işlər idi. Bu işlər Heydər Əliyevin bütün həyatı boyu ikinci dərəcəli məsələ olmamışdı və Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi zamanlardakı fəaliyyətində də bunu müşahidə etmək olurdu: *"Müstəqil Azərbaycanın gələcəyi haqqında düşünsək, gənc nəslin tərbiyəsinə ciddi fikir versək, ən əvvəl ali təhsil almağa qadir, yəni buna öz biliyi, zəkası, fitri istedadı ilə layiq olan gənclərin ali məktəblərə qəbul olunmasını təmin etsək, onda gələcəyimiz üçün böyük işlər görmüş olarıq. Odur ki, mən bu məsələyə xüsusi diqqət yetirirəm" (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Prezident sarayında respublikanın ali və orta ixtisas məktəblərinə qəbulla əlaqədar keçirilən müşavirədəki çıxışından. "Xalq qəzeti", 3 avqust 1994-cü il).*

Xatırladaq ki, hələ Azərbaycana rəhbərlik etdiyi birinci dövrlərdə bu məsələ ölkənin gənc rəhbəri üçün həyati əhəmiyyətli vəzifələrdən birinə çevrilmişdi. Geniş dünyagörüşünə malik Heydər Əliyev haqlı olaraq hesab edirdi ki, SSRİ-nin subyektləri olan digər müttəfiq respublikaların qabaqcıl müəssisələrində ali təhsil almaqla azərbaycanlı gənclər müvafiq ixtisaslara yiyələnməklə bərabər, içində olduqları fərqli mədəniyyətlərdən müsbət nə varsa əxz edəcəklər. Bunu isə Ümummilli Lider çox vacib hesab edir, hətta həmin ölkələrdə ali təhsil almağa gedən gənclərlə artıq ənənə halını almış görüşlərindəki çıxışlarında xüsusi vurğulayırdı. 1970-ci ildən başlayaraq hər il İttifaqın müxtəlif nüfuzlu ali məktəblərinə azərbaycanlı gənclərin qəbul olunması üçün onun müxtəlif qurumlar qarşısında qaldırdığı məsələlər həllini tapdı. Beləliklə, SSRİ-nin paytaxtı Moskva ilə yanaşı, Sankt-Peterburq, Kaliningrad, Kazan, habelə Ukrayna, Pribaltika respublikaları və digər respublikalardakı qabaqcıl ali məktəblərə hər il 600 - 900 gənc göndərilirdi. O gəncləri "Azərbaycanın milli sərvəti" adlandıran Ümummilli Lider onlarla qürur duyduğunu gizlətmirdi. Bütün bunlar strategiyaya hesablanan planların tərkib hissəsi idi və qeyd etməyi lazım bilirik ki, bu, bir sıra, xüsusilə Rusiya kütləvi-informasiya vasitələrinin diqqətini cəlb etmişdi. 1990-cı illərin əvvəllərində bununla bağlı analitik yazılar Rusiyanın həmin zamanlar üçün ən populyar və çoxtirajlı mətbu vasitələrindən olan "Komsomolskaya Pravda" qəzetində gedirdi. Hakimiyyətdə olduğu ilk illərdə Heydər Əliyevin azərbaycançılıq milli ideologiyasının əsasları ilə bağlı fikirləri buna görə idi ki, nəinki ölkəmizdə, həmçinin yaxın qonşularımız tərəfindən diqqətlə öyrənilirdi.

Milli ideologiyamızın əsaslarının məktəbəqədər müəssisələrindən başlayaraq ümumtəhsil və ali məktəblərdə uşaq-gənclərə təlqin olunmasını başlıca vəzifə kimi qəbul edən Ümummilli Lider bu ideologiyanın ana xəttində dövlət dilinə xüsusi diqqətin dayanmalı olduğunu buna görə hər məqamda vurğulayırdı: *"Məktəblərdə Azərbaycan dilinin tədrisinə mühüm diqqət yetirilməlidir. Fəxr edə bilərik ki, bizim zəngin, böyük söz ehtiyatına malik olan Azərbaycan dilimiz var. Azərbaycan dili söz ehtiyatına görə, fikri ifadə etmək imkanlarına görə çox zəngindir. Ancaq lazımdır ki, Azərbaycan dilinin bu zənginliyi, bu böyük imkanları orta məktəbdə ilk təhsilə başlayan hər bir gənc tərəfindən mənimsənilə bilsin və gənclərimiz artıq orta məktəbdə öz dilini - ədəbi dilini, mədəni dilini yaxşı mənimsəsin, öz dilində yaxşı danışa bilsin, öz dilində fikrini ifadə edə bilsin" (Heydər Əliyevin Bakı şəhərinin təhsil işçiləri ilə görüşündəki nitqindən. "Xalq qəzeti", 31 avqust 1994-cü il).*

Prezident Heydər Əliyev təhsil alan nəslin təhsil müəssisələrinə qədəm basdığı ilk addımlardan onların vətənpərvərlik əhvali-ruhiyyəsi ilə tərbiyə olunmasını vacib sayırdı. Ümummilli Lider hesab edirdi ki, *"Bütün dərslər, xüsusən humanitar fənlər tədris olunan dərslər gərək gənclərimizdə Vətənə sədaqət, torpağa sədaqət, vətənpərvərlik ruhu aşılasın, onları tərbiyə etsin və bunlar hər bir gəncin qəlbində sarsılmaz bir qalaya çevrilsin".* Böyük dövlət xadimi bu xüsusda hər məqamda, xüsusilə gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan pedaqoji işçilərlə görüşündə xatırladıdı: *"Vətənpərvərlik təkcə o deyil ki, gedib Vətəni silahla müdafiə edəsən. İnsan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğısı ilə yaşasın, onun həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın. Vətənpərvər insan öz mədəniyyətinin də, iqtisadiyyatının da, öz dilinin də, təhsilinin də inkişaf etməsini istəyir, xalqının rifah halının yüksəklərə qaldırılmasını istəyir. Bütün bunlar vətənpərvərlik məfhumuna daxil olan anlayışlardır".*

Heydər Əliyev hesab edirdi ki, milli dəyərləri qiymətləndirmək, onu qoruyaraq inkişaf etdirmək hər bir insan üçün ən vacib şərtlərdən biridir və buna görə də O, insanı qiymətləndirərkən bu amillərə xüsusi önəm verirdi. Ümummilli Lider üçün cəmiyyətin əsas göstəricilərdən biri gəncliyin milli kimliyini bilməsi və o köklərdən qidalanması idi. Buna görə də O, hər bir azərbaycanlı ailəsini millətinə bağlı, lakin millətçilikdən uzaq durmağa səsləyirdi. Ümummilli Lider bütün dahilər kimi, millətçiliyin əksinə, hər bir millət üçün gətirdiyi bəlaları tarixi hadisələrin nümunəsində bumeranq effekti kimi geri qayıtdığını ayrı-ayrı xalqların taleyində hansı fəsadlar yaratdığına yaxşı bələd idi. Ulu Öndər buna görə də gəncliyin tərbiyəsində buraxılan səhvlərin gələcək nəsillərin həyatı üçün yaxşı heç nə vəd etmədiyinə əmin idi: *"Gənclərin tərbiyəsində milli, dini adət və ənənələrimizdən istifadə etmək lazımdır. Əsrlərin dərinliyindən bu günə gəlib çatan adət-ənənələrimiz həmişə adamları saflığa, təmizliyə dəvət etmişdir. Milli və dini adət-ənənələrimiz məhz bu prinsiplərə əsaslanır... Bu gün biz də gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik. Bununla biz nəinki cəmiyyətimizi qoruyacağıq, həm də gələcək nəsli sağlam saxlayacaq və həmin nəsildə cəmiyyətimiz, xalqımız üçün zərərli halların kök salmasının qarşısını alacağıq".*

Heydər Əliyev təkcə Azərbaycan və türkdilli xalqların deyil, dünya ədəbiyyatının ən qiymətli nümunələrini yaratmış Hüseyn Cavidin yaradıcılığına da dərindən bələd idi. Böyük dövlət xadimi Hüseyn Cavid barədə danışarkən onun yaradıcılığından yerli-yerində gətirdiyi sitatlar bu bələdçiliyin geniş miqyasından xəbər verirdi. Həmin sitatlardan biri böyük dramaturqun "Peyğəmbər" dramından idi və o məqamları izləyən insanların hafizəsində böyük siyasətçinin özünəməxsus diksiya ilə dediyi o beyt əbədilik həkk olunub:

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur Yer üzünü!*

Ümummilli Lider Azərbaycana ikinci rəhbərliyi dövründə ölkəmizin millətçilik azarına düçar olmuş, bütöv xalqları "yer üzündən silmək" kimi xəstə təxəyyül ilə nəfəs alan erməni cəmiyyətinin ruporuna çevrilən Ermənistan Respublikasının rəsmi dairələrinə dəfələrlə bu siyasətin perspektivsizliyini izah etməyə çalışmışdı. Bu da tarixin ibrət dərslərindəndir ki, o vaxtkı Ermənistanın dövlət siyasətinə çevrilərək az qala bütöv milləti bu yolda səfərbər edən işğalçı, militarist ölkənin əhalisi sonralar böyük dövlət xadiminin vaxtilə peyğəmbərcəsinə dediyi sözlərin hikmətinə əmin oldular. 2020-ci ilin payızında başlayan Vətən müharibəsində qüdrətli Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımıza bəxş etdiyi Zəfərin tarixi ədalət olduğunu görənlərsə təkcə onlar olmadı. Hər halda, həmin cəmiyyətdə də Azərbaycanın haqq işini başa düşən insanlar vardı və inanmaq istərdik ki, bu gün də elə insanlar az deyil. Şübhəsiz ki, 2003-cü ilin payızında Azərbaycan Respublikasına Prezident seçkilərinə az qalmış Ümummilli Liderin Prezidentliyə namizədliyini digər namizəd İlham Əliyevin xeyrinə geri götürməsi ilə bağlı Azərbaycan xalqına müraciətini onlardan da hansılarsa oxumuşdu. Həmin müraciət bu cümlələrlə tamamlanırdı: *"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Bu, ölkəmizin gələcəyi ilə bağlı peyğəmbərcəsinə deyilmiş sözlər idi.

**Mahirə HÜSEYNOVA,**
*ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor*

# Elm və təhsil naziri NAFSA-nın icraçı direktoru ilə görüşüb



Mayın 3-də elm və təhsil naziri Emin Əmrullayev Beynəlxalq Təhsilverənlər Assosiasiyasının (NAFSA) icraçı direktoru Fanta Av ilə görüşüb.

Görüşdə Elm və Təhsil Nazirliyi ilə NAFSA arasında əməkdaşlıq imkanları müzakirə edilib.

# Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki yığıncağı keçirilib



Elm və Təhsil Nazirliyinin Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki yığıncağı keçirilib.

Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Aparat rəhbəri Mətin Kərimli, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə və ittifaq üzvləri iştirak ediblər.

Nazir müavini Firudin Qurbanov tədbiri açaraq gündəlikdə duran məsələlər barədə məlumat verib. Sonra Elm və Təhsil Nazirliyinin Həmkarlar İttifaqı Komitəsi və Təftiş Komissiyasının hesabatları dinlənilib. Hesabatlar üzvlər tərəfindən qənaətbəxş olaraq qiymətləndirilib.

Daha sonra yığıncaqda səsvermə keçirilib, Həmkarlar İttifaqı Komitəsi və Təftiş Komissiyasının yeni tərkibi formalaşdırılıb. Elnur Əliyev ittifaq üzvləri tərəfindən Həmkarlar İttifaqı Komitəsinin sədri, Gülarə Xudiyeva isə sədr müavini seçilib.




# Azərbaycan Tələbə Liqasına yekun vurulub

## Qalib komandalar mükafatlandırılıb

Mayın 3-də ölkədə ilk dəfə təşkil olunan ali təhsil müəssisələrinin tələbələri arasında futzal üzrə Azərbaycan Tələbə Liqasına yekun vurulub.

III yer uğrunda mübarizədə Azərbaycan Texniki Universitetinin komandası Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin komandasına qalib gəlib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının komandası isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandasını məğlub edərək liqanın qalibi olub.

Liqanın ikinci altılığında mübarizə aparan komandalardan I yeri Bakı Dövlət Universiteti, II yeri Bakı Mühəndislik Universiteti, III yeri Bakı Ali Neft Məktəbinin komandası tutub.

Oyunlardan sonra qaliblərin mükafatlandırılma mərasimi keçirilib.

Tədbirdə Elm və Təhsil Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Tələbə Futbol Federasiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəsmi şəxsləri, veteran futbolçular iştirak ediblər.

Bədii hissədən sonra elm və təhsil nazirinin müavini, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin prezidenti Firudin Qurbanov çıxış edərək ölkəmizdə ilk dəfə keçirilən Azərbaycan Tələbə Liqasından danışıb, liqanın ali təhsil müəssisələrinin tələbələri arasında futzalın təbliği, perspektivli idmançıların aşkarlanmasında xüsusi rol oynadığını vurğulayıb. Firudin Qurbanov həmçinin çıxışında idmanın yetişməkdə olan gənc nəslin sağlamlığının təmin edilməsi və onların vətənpərvərlik hisslərinin tərbiyəsində mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Daha sonra oyunlarda fərqlənən üç tələbə-futbolçu "Ən yaxşı qapıçı", "Ən yaxşı müdafiəçi", "Ən yaxşı oyunçu" nominasiyaları üzrə xüsusi mükafatla təltif olunub, ikinci altılığın qalib komandalarına kubok və hədiyyə, liqanın qalib komandalarına medal və pul mükafatı, çempion komandaya isə kubok təqdim edilib.

Qeyd edək ki, Azərbaycan Tələbə Liqası Elm və Təhsil Nazirliyi və Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə keçirilib.

# Əsas istiqamətlərimizdən biri Böyük Qayıdış prosesini təhsilin müxtəlif pillələrində effektiv şəkildə həyata keçirməkdir



**Mayın 7-də elm və təhsil naziri Emin Əmrullayev "Real TV"-nin "Vacib sual" proqramının qonağı olub. Müsahibədən mühüm mesajları təqdim edirik.**

"Xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyünü tam bərpa etməsindən sonra tarixin bu səhifəsində istər növbəti nəsillər, istərsə də gənc nəsil üçün yeni imkanlar açılır".

"Azərbaycan elmi ilə bağlı orijinal məqsədlərə qayıtmalıyıq. Bu dəyişikliklərin məqsədi ondan ibarətdir ki, elmlə təhsil arasında bir vəhdət qurulmalı və inteqrasiya aparılmalıdır".

"Bu gün ölkəmizdə 100-dən artıq elmi müəssisə olsa da, onların arasında qarşılıqlı fəaliyyət çox aşağı səviyyədədir".

"Bir alimin yetişməsi üçün 20-30 il investisiya qoyulmalıdır. Elmin inkişafından danışarkən anlamalıyıq ki, bunun üçün ciddi bir zaman lazımdır".

"Bir neçə ali təhsil müəssisəsini qlobal reytinqlərdə görmək istəyirik. 5-6 ali təhsil müəssisəsinin müəyyən mənada bu imkanları var. Onlar qlobal reytinqlərə düşdükdən sonra biz bu sayı 7-8-ə çatdıracağıq".

"İnanırıq ki, Qarabağ Universiteti türkdilli dövlətlər arasında əməkdaşlığın yeni platformasına çevrilə biləcək".

"Elm və Təhsil Nazirliyi olaraq bizim əsas istiqamətlərimizdən biri Böyük Qayıdış prosesini təhsilin müxtəlif pillələrində effektiv şəkildə həyata keçirməkdir".

"Sertifikatlaşdırmanın yekun məqsədi şagirdin qarşısına hazırlıqlı kadr çıxarmaqdır, çünki bir sistem öz müəllimindən daha yaxşı ola bilməz".

"Dövlət İmtahan Mərkəzi (DİM) ilə koordinasiya olunmuş əməkdaşlıq Azərbaycan təhsilinə müsbət mənada təkan verir. DİM-in fəaliyyəti bizim qərarlarımızın səmərəliliyini artırır".

"Anlamalıyıq ki, təhsil sadəcə ballardan ibarət deyil. Bu il buraxılış ballarının yuxarı olması bizi sevindirir. Amma bizim müzakirələrimiz ballar üzərindən olmamalıdır".

# Azərbaycan təhsili İkinci Dünya müharibəsi illərində

## Rektor müharibəyə getdi, tələbə Qəhrəman oldu



Ötən əsrin 40-cı illərində Sovet İttifaqı kimi bir böyük imperiyanın tərkibində olan digər müttəfiq respublikalar kimi Azərbaycan üçün də İkinci Dünya müharibəsi başladı.

Müharibənin ilk günlərindən Azərbaycan müəllimlərinin 50 faizi orduya səfərbər olundu. Məktəb binalarının əksəriyyəti, xüsusən Bakıda hospitallara və müdafiə müəssisələrinə verildi. Məktəblər iki-üç növbəli iş rejiminə keçirildi. Ali məktəb və texnikum tələbələrinin yarıdan çoxu ordu sıralarına çağırıldı. İxtisaslı kadrların qısaldılmış proqramla hazırlanmasına başlanıldı, ali məktəblərdə təhsil müddəti azaldıldı. Ali məktəb tələbələrinin, yuxarı sinif şagirdlərinin hərbi-fiziki hazırlığı, tələbələrin kənd təsərrüfatı işlərində iştirakı kütləvi xarakter aldı.

1941-ci ildə məktəbləri pedaqoji kadrlarla təmin etmək məqsədilə Qazaxda, Qubada, Xankəndidə, Ağdamda ikiillik müəllimlər institutları, Cəlilabad və Laçında pedaqoji məktəblər açıldı. Ölkənin işğal edilmiş rayonlarından Azərbaycana köçürülmüş müəllimlər pedaqoji işə cəlb olundu. 1941-ci il iyul ayının 10-na qədər bütün idarə və müəssisələrdə özünümüdafiə dəstələri yaradıldı. Özünümüdafiə dəstələrinə yaşlılarla yanaşı, 12000 məktəbli də səfərbər edildi.

### Rektor müharibəyə yollandı

Müharibə illərinə təsadüf edən 1940-1941-ci tədris ilində Azərbaycanda 16 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, onlarda da 14,6 min tələbə təhsil alırdı. Onların 4500-ü qadın idi. Qısa bir vaxt ərzində Azərbaycanda milli mütəxəssislərin hazırlanması problemi həll edilmiş və mədəni inqilabın başlıca vəzifələrindən biri yetinə yetirilmişdi. 1941-ci ilin yanvarın 1-də respublikanın xalq təsərrüfatında artıq 20 min ali təhsilli mütəxəssis çalışırdı.

Lakin faşist Almaniyasının SSRİ-yə qarşı qəfil müharibəyə başlaması ali təhsilə öz təsirini göstərdi. Müharibənin birinci günü Bakı Dövlət Universitetinin rektoru C.A.Ələsgərov Qızıl Ordu sıralarına getdi. Universitetin 1940-1941-ci tədris ilindəki məzunları - təkcə oğlanlar deyil, həm də qızlar, bir çox tələbə və müəllim Vətənin müdafiəsinə qalxdılar. Bakıdan cəbhəyə yollanan ilk əsgər eşelonlarında universitetin 200-dən artıq tələbəsi vardı.

Cəbhəyə gedənlər arasında elmlər namizədləri, dosentlər, müəllimlər, aspirantlar, tələbələr və ali məktəblərin texniki heyət üzvləri var idi. Ali məktəblərin bir çox əməkdaşları müharibə dövründə qəhrəmanlıqlar göstərdilər.

### Qəhrəman tələbələrimiz

Düşmənə qarşı döyüşlərdə igidliyinə görə Azərbaycan Pedaqoji İnstitutunun (ADPU) yetirmələri əfsanəvi partizan Mehdi Hüsenyzadə, Fariz Səfərov, fizika- riyaziyyat fakültəsinin 3-cü kursundan cəbhəyə getmiş Səlahəddin Kazımov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər. 1941-ci ilin dekabrında döyüşlərdə göstərdiyi igidlik və qəhrəmanlığa görə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tələbəsi İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Azərbaycan Sənaye İnstitutunun tələbəsi Pavel Klimov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, neft kimyası fakültəsinin sabiq dekanı İ.Semyanistin Qırmızı Ulduz medalı ilə təltif olundu.

1941-1945-ci illər müharibəsində iştirak edən xalq maarifi işçilərindən biri də sonralar Azərbaycanın xalq maarifi komissarı (1952-ci il), xalq maarifi naziri (1962-ci il) təyin olunan akademik Mehdi Mehdizadə idi. M.Mehdizadə sonralar "Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr" monoqrafiyasında yazırdı: "Son dərəcədə çətin vəziyyətə baxmayaraq Azərbaycan ali təhsil müəssisələri müharibə dövründə qarşıya qoyulmuş məsul vəzifəni - cəbhə üçün, sənaye, nəqliyyat, kənd təsərrüfatı, xalq təsərrüfatının və mədəniyyətn digər sahələri üçün yüksəkixtisalı mütəxəssis hazırlığı işini dayandırmadan davam etdirirdi".

Müharibə Azərbaycan məktəbinin işini xeyli çətinləşdirdi, böyük ziyan vurdu. Lakin müharibə məktəblərimizin fəaliyyətini dayandıra bilmədi. Azərbaycan məktəbləri böyük çətinlikləri aradan qaldıraraq, tədrisin təşkili və böyüyən gənc nəslin təlim-tərbiyəsi üzrə böyük təcrübə topladılar.

Müharibə respublikanın müəllim kadrlarının tərkibini dəyişdi. Bir çox təcrübəli pedaqoqlar cəbhədə idilər. Məktəblərdə bəzi fənlərin yalnız müəllimlər olmadığı üçün öyrənilmədiyi hallar var idi. Bu vəziyyətlə əlaqədar olaraq təhsil sahəsində bir sıra məcburi tədbirlərə əl atıldı-müəllimlərin dərs yükü artırıldı, paralel siniflərin birləşməsi aparıldı, müəllimlik fəaliyyəti üçün yeni kadrlar hazırlandı, təxliyə edilmiş müəllimlərdən geniş istifadə olunmasına başlanıldı.

### Müharibə xalq maarifi üçün ciddi çətinliklər yaratdı

Bu illərdə ali məktəblərin fəaliyyətində də ciddi dəyişikliklər baş verdi. Ali məktəblərin elmi və tədris işini müharibə dövrünün tələblərinə uyğunlaşdırmaq üçün təcili tədbirlər görüldü. 1941-1942-ci tədris ilində V.İ.Lenin adına Pedaqoji İnstitut, K.Marks adına Xalq Təsərrüfatı İnstitutu və Qiyabi Pedaqoji İnstitut müvəqqəti olaraq Azərbaycan Dövlət Universiteti (ADU) ilə birləşdirildi. 1941-ci ilin dekabrında Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu ADU-nun bədən tərbiyəsi fakültəsinə çevrildi.



Müharibə xalq maarifi üçün ciddi çətinliklər yaratdı. Müəllimlərin çoxu müharibəyə getmişdi. Məktəbləri pedaqoji kadrlarla təmin etmək üçün müharibə illərində ikiillik müəllimlər institutları açıldı. 1943-cü ildə Kirovabad (Gəncə) ikiillik Müəllimlər İnstitutunun bazasında H.Zərdabi adına Pedaqoji İnstitut yaradıldı.

Müharibənin ilk günlərindən qısaldılmış təhsil müddətli tədris planlarının tətbiqinə başlanıldı. Təhsil müddəti 5 il olan ali məktəblər üçün 3 il yarım, təhsil müddəti 4 il olan ali məktəblər üçün 3 il təhsil müddəti müəyyən edildi. Lakin 1942-1943-cü tədris ilindən universitetlərdə əvvəlki illərdəki kimi 5 illik təhsil müddəti bərpa olundu.

Universitetlər müharibə dövründə çox ciddi professor-müəllim ehtiyacı yaşayırdı. Onların bir çoxu müharibəyə, digər hissəsi istehsalata yollanmışdı. Müəllimlərdən bir çoxu əvəzçilik qaydası ilə 2 və hətta daha çox yerdə işləməli olurdu. Aspirantların çoxu müharibəyə getdi. Müharibənin ilk illərindən aspiranturalar bağlandı. Yalnız 1943-1944-cü tədris ilindən aspiranturalara qəbul bərpa olundu.

Müharibə dövrünün çətinliklərinə baxmayaraq ali məktəblərin əməkdaşları namizədlik və doktorluq dissertasiyaları üzərində işləyir və bir çoxları uğurla müdafiə edirdilər. Məsələn, müharibə dövründə ADU-nun Elmi Şurasında 13 doktorluq və 118 elmlər namizədi dissertasiyası, V.İ.Lenin adına APİ-də isə 3 doktorluq və 13 namizədlik dissertasiyaları müdafiə olundu.

Ali məktəblər böyük çətinliklər dövründə ölkəyə mümkün qədər daha çox yüksəkixtisaslı mütəxəssis hazırlamaq vəzifəsinin öhdəsindən müvəffəqiyyətlə gəldilər. S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti müharibə illərində 1750 mütəxəssis hazırladı. M.Əzizbəyov adına Sənaye İnstitutu bu dövrdə 1395 mühəndis buraxdı. Professor-müəllim heyəti tərəfindən müdafiə və xalq təsərrüfatı əhəmiyyətli 285 elmi iş yerinə yetirildi. Tibb İnstitutu 3305 həkim hazırladı. Onların əksəriyyəti cəbhələrdə hərbi xəstəxanalarda işləyirdi. Kənd Təsərrüfatı İnstitutu 550-dən çox mütəxəssis hazırladı.

### Vətənpərvərlik hissi ən müqəddəsdir

Müharibə dövründə təhsil işçilərinin əsas diqqəti şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsinə yönəldilib. Azərbaycanın xalq şairi Səməd Vurğun "Ən yaxşı əsərləri uşaqlarımız üçün yaradaq" adlı məqaləsində yazırdı ki, "insan hissləri arasında vətənpərvərlik hissi ən müqəddəsdir. Bu, ən əhəmiyyətli, irəliləyişə və inkişafa təkan verən amillərdən biridir. Uşaq gənclik illərinə girdikdə onun mənsub olduğu xalq haqqında anlayış genişlənir. Bütün bu anlayışların düzgünlüyü bu və ya digər gəncin Vətən haqqında bildiyi məlumatlardan asılıdır. Vətən müharibəsi göstərdi ki, ən cəsur insanlar mənəvi cəhətdən inkişaf etmiş insanlardır, Vətənin maraqlarını öz şəxsi maraqlarından üstün tutan insanlardır".

Azərbaycan şagirdləri müharibə illərində cəbhəçilərə minlərlə paket göndəriblər. Şuşa yeddiillik məktəbin şagirdləri 1942-ci ildə yeni il ərəfəsində əsgərlərimizə 20 paket yollayıblar. Bakıdakı 134 nömrəli məktəbin şagirdləri əsgərlərə göndərdikləri məktubda yazırdılar: "Əziz əsgər! Biz bütün sinif olaraq inanırıq ki, tezliklə qalib gələcəyik. Başqa cür də ola bilməz...".

### Azərbaycan elminin gücü

1418 günlük müharibədə Azərbaycan elmi də qələbə üçün səfərbər olundu. Bu dövrdə elmi müəssisələrinin bütün fəaliyyəti cəbhənin ehtiyaclarının təmin olunmasına yönəldildi. Müharibədə Azərbaycan elmi də öz gücünü göstərib.

Qələbədə əvəzsiz xidmətləri olan akademik Yusif Məmmədəliyev və aspirantı Əli Quliyev bu dövrdə neft kimyası və neft emalının vacib proseslərindən olan alkilləşmə sahəsində yeni kəşflər ediblər. Akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illər müharibəsi dövründə rəhbərliyi ilə neft kimyası və neft emalının vacib proseslərindən olan alkilləşmə sahəsində misilsiz nailiyyətlər əldə edilib və yeni kəşflərə imza atılıb. Nəticədə onun üsulu ilə yüksək çıxımla alınan və strateji əhəmiyyətli məhsullar olan alkilaromatik birləşmələr cəbhənin məqsədləri üçün geniş istifadə olunub, həmçinin "Molotov kokteyli" yeni tərkibdə işlənib hazırlanıb. Top mərmilərinin və minaların hazırlanmasında ən çox istifadə olunan trinitrotoluol (trotil) partlayıcı maddəsinin əsas komponenti olan toluolun yüksək çıxımla alınması, təyyarələrin yüksək uçuşunu təmin edə bilən yüksəkoktanlı və çox aşağı donma temperaturuna malik yanacaqların hazırlanması onun adı ilə birbaşa bağlıdır. Alimin elmi ixtiralarına əsasən, 1941-1944-cü illərdə Bakı neftayıranları cəbhəyə milyon tonlarla yüksək keyfiyyətli benzin veriblər. Görkəmli akademikin Azərbaycan nefti əsasında aldığı yüksək keyfiyyətli, oktan ədədi 120-yə bərabər olan, aşağı donma temperaturuna malik bu qiymətli yanacaq İkinci Dünya müharibəsində aviasiya yanacağı kimi də istifadə olunaraq qələbəyə birbaşa yol açıb. Y.Məmmədəliyev bu rəşadətlərinə görə bir çox təltiflərə, o cümlədən Dövlət mükafatına layiq görülüb.

Beləliklə də müharibə illərində Azərbaycan təhsili, müəllimi özünün şərəfli missiyasına sadiq qalaraq gənc nəslin təlim-tərbiyəsi prosesinin fasiləsizliyinin təmin olunmasına, pedaqoji kadr hazırlığının davam etdirilməsinə, Azərbaycanın görkəmli alimləri isə öz bilik və təcrübələri ilə düşmən üzərində qələbənin qazanılmasına böyük töhfələr veriblər.

**Oruc MUSTAFAYEV**



## "Müəllim olmağımla həmişə fəxr etmişəm"

### Müsahibimiz II Dünya müharibəsi iştirakçısı, 103 yaşlı Tamleyxa Həsənovdur

Bəşər tarixinin ən amansız müharibəsi hesab edilən II Dünya müharibəsi milyonlarla insanın həyatına son qoydu. Bu müharibənin fəsadları ölkəmizdən də yan keçmədi. Xalqımız faşizmə qarşı mübarizədə həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq və əzmkarlıq göstərmişdir. Altı yüz mindən çox həmvətənlimiz bu müharibədə iştirak etmiş, onlardan 300 minə yaxını qəhrəmancasına həlak olmuşdur. Azərbaycan müəllimi hər dövrdə fədakarlıq nümunəsi göstərmişdir. Həmin dövrdə müəllim kimi cəbhəyə yollanan, öz şagirdlərinə əsl qəhrəmanlıq nümunəsi göstərən pedaqoqlarımız var idi. Belə pedaqoqlardan biri də 103 yaşlı müharibə veteranı, uzun illər təhsil sahəsində çalışan Tamleyxa Həsənovdur.

Tamleyxa Həsənov 1921-ci ildə Culfa rayonunun Ərəfsə kəndində anadan olub. Onun arzusu müəllim olmaq idi. Elə bu məqsədlə də T.Həsənov Naxçıvanda Pedaqoji Texnikumuna daxil olur. Texnikumu bitirdikdən sonra kənd məktəbində müəllim işləyən qəhrəmanımız qısa müddət sonra cəbhəyə yollanır. 1942-1945-ci illərdə müharibədə iştirak edən və ağır yaralanan Tamleyxa müəllimə öz bilik və bacarığına görə kiçik hərbi rütbə də verilir. Elə bu rütbə də müharibənin bitməsinə baxmayaraq onun 1950-ci ilə qədər orduda xidmət etməsinə, tərxis olunmamasına səbəb olur.

Gəlin hekayənin davamını qəhrəmanımızın öz dilindən eşidək.

- *Özününzü necə hiss edirsiniz, Tamleyxa müəllim?*

- Şükür Allaha, yaşıma görə çox yaxşıyam.

- *Müharibə dövrünü necə xatırlayırsınız?*

- Çox ağır illər idi. İnsanlar təşviş içində idi. Lakin buna baxmayaraq hamı var qüvvəsi ilə çalışırdı. Evlərə tez-tez qara məktublar gəlirdi. Müharibənin ilk illərində xalqımız daha çox itki verirdi. O, illəri böyük bir kədərlə xatırlayıram. Amma qələbə qazandığımız üçün də qürurluyam.

- *Müharibə dövrünün təhsili haqqında nə deyə bilərsiniz?*

- Uşaqlıq arzum müəllim olmaq idi. O zamanlarda ölkədə ciddi müəllim çatışmazlığı var idi. Mən də arzumu reallaşdırmaq üçün Pedaqoji Texnikuma daxil oldum. Yeni fəaliyyətə başlamışdım ki, məni də cəbhəyə yolladılar. Biz həmin dövrlərdə müəllimliklə bərabər ideoloji işlə də məşğul idik. Çünki cəmiyyətdə müəllim sözü çox önəmli idi. Vətənpərvərlik və faşizmə qarşı mübarizəni təbliğ edirdik. İnan ki istər müəllimlər, istərsə də şagirdlər çox həvəslə dərslərə yanaşırdı. Elə bil təhsil acgözlüyü var idi. İnsanlar gələcəyi təhsildə görürdülər. Dərs ləvazimatları çox az idi. Həmin dövrün təhsilində əsas məqsəd oxu və yazı bacarıqlarını formalaşdırmaq, riyazi bilikləri aşılamaq, texniki fənlərin mahiyyətini şagirdlərə öyrətmək idi. Onu da deyim ki, müəllim olduğum üçün müharibədə də mənə xüsusi hörmət bəsləyirdilər. Yazı-pozunu və rus dilini bildiyim üçün müharibəyə gedəndən qısa müddət sonra məni "Serjant şkolaya" göndərdilər. Orada da hərbinin sirlərini öyrənməyə başladım və kursu uğurla bitirdim.

- *Müharibədən sonra pedaqoji fəaliyyətinizi davam etdirdinizmi?*

- Məni müharibə bitəndən sonra 5 il hərbidə saxladılar. O vaxt SSRİ-də hərbi bazalar qurulurdu. Biz həmin bazaları mühafizə edirdik. 1950-ci ildə oradan tərxis edildikdən sonra kəndimizdə müəllim işlədim. Sonra indiki Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil oldum. Məqsədim ali təhsil almaq idi. Müharibə iştirakçısı olduğum və Pedaqoji Texnikumu bitirdiyim üçün universitetə imtahansız qəbul olundum. Universiteti bitirdikdən sonra Yüngül Sənaye Nazirliyinin tərkibində yeni qurulan texnikumlara kurator təyin edildim. Bakıda, Şəkidə və Gəncədə yerləşən texnikumlara 8 il nəzarət mənə tapşırılmışdı. Sonra Bakıdakı texnikumda tədris işinin təşkili ilə məşğul oldum. Uzun illər texnikumda həm müəllim, həm də tədris işləri üzrə direktor müavini vəzifələrində işlədim. Müəllim olmağımla həmişə fəxr etmişəm.

- *Savaşdan sonrakı dövrlərdə təhsilimizi necə səciyyələndirirsiniz?*

- 50-60-cı illərdə təhsildə böyük bir sıçrayış oldu. Həmin vaxtlarda təhsilimizə xüsusi töhfə verən qabaqcıl pedaqoqlarımız, alimlərimiz var idi. Universitetlər sürətlə inkişaf edirdi. Müəllim, ziyalı cəmiyyətdə çox böyük nüfuza sahib idi. Dövrün pedaqoji yeniliklərini böyük həvəslə oxuyurduq. Elə sizin qəzetin hər nömrəsini müəllimlər, pedaqoqlar səbirsizliklə gözləyirdilər.

- *Veteranlar həmişə nümunə olublar...*

- İstər SSRİ dövründə, istərsə də müstəqillik illərində həmişə dövlətimizin qayğısını görmüşük. Bizə həmişə böyük hörmət və ehtiram göstəriblər. Hər il faşizm üzərində qələbənin ildönümündə xüsusi mükafatlar təqdim edirlər. Bizi heç vaxt unutmurlar.

- *Oxucularımıza nəyi demək istərdiniz, Tamleyxa müəllim?*

- Hər kəsə sağlamlıq və xoşbəxtlik arzulayıram. Mənim kimi uzunömürlü olmaq istəyirlərsə düzgün qidalanmağa, idmana, yuxuya xüsusi diqqət yetirmək lazımdır.

Biz də Tamleyxa müəllimə cansağlığı arzulayırıq, bizə zaman ayırdığı üçün təşəkkürümüzü bildiririk.

**Niyazi RƏHİMOV**



# MƏKTƏBDƏ BAĞÇA YARADIB QRANT QAZANDILAR

## Alternativ məktəbəqədər sinifdən reportaj





Səbinə, Fatimə, Kənan, Cahid, Sübhan, Fidan 3, Aylin, İnci, Mələk, İbrahim, Pərvanə, Yaşar, Əsnad isə 4 yaşındadırlar. Onlar eyni sinifdə təlimə cəlb ediliblər. Məktəbə, həyata burda hazırlanırlar. Bu qrupun 4 yaşlı üzvləri növbəti tədris ilindən ayrılacaq, məktəbə elə məktəbdəcə, amma bu dəfə məktəbəhazırlıq qrupunda hazırlanmağa davam edəcəklər. Söhbət Qala qəsəbəsi 216 nömrəli tam orta məktəbdən gedir. Burada “Alternativ məktəbəqədər təhsil xidmətlərinin təşkili” pilot qrant proqramı çərçivəsində mart ayının 1-dən 20 nəfərlik məktəbəqədər qrup təşkil edilib. Yəni, bir məktəbin eyni sinif otağına yığışan 3-4 yaşlı balaca ürəklər öyrənmək üçün çırpınır. Onların öyrənmək həvəsini görmək istəyənlər mediatur çərçivəsində həmin məktəbin qonağı oldular. Belə ki, “Azərbaycan müəllimi”nin də aralarında olduğu media nümayəndələri, Elm və Təhsil Nazirliyinin Satınalmalar və qrantlar sektorunun müdiri Vüsalə Əliyeva, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi Xalidə Musayeva Həmidova və digər qonaqlara həmin alternativ məktəbəqədər sinfin uşaqları üçün yaradılan şəraitlə tanış olmaq imkanı yarandı.

### 3 yaşından məktəbə hazırlaşırlar

Hər biri öz sərbəstliyi ilə seçilir. Qarşısındakı ev rəsmini boyayan, boyayıb bitirdiyi rəsmi göstərib “əhsən” gözləyənlər də var, başını elə masasının üstünə qoyub mışıl-mışıl yatan da. Bir neçəsi də bu gün üçün xüsusi hazırlaşıb. Üz-gözünü bəzəyib, ən sevdiyi paltarını geyinib gəlib. Çox həvəsli görünür, sevinclə qonaqları nəzərdən keçirir, onlarla söhbətdən çəkinmirlər.

Sinifdə uşaqlarla eyni vaxtda 2 nəfər məşğul olur, biri tərbiyəçi müəllim, o birisi dayədir. Qrupun dayəsi Ülkər Mövsümovadır. O, uşaqların da, sinfin də təmizliyinə nəzarət edir, uşaqların səliqəsinə diqqət yetirir, ailələrinin uşaqlar üçün qoyduğu yeməyi yedirir, lazım gələndə geyimlərini dəyişdirir, uşaqların çətinlik çəkdiyi bütün məsələlərdə onlara kömək edir. 40 yaşlı Ülkər xanım indiyədək heç işləməyib. Evdar xanım həyatını yaxınlığında yaşadığı 216 nömrəli tam orta məktəbdə başlayacaq layihə barədə eşidəndə dəyişməyə qərar verib: “Uşaqları çox sevirəm. Ona görə bu layihə barədə eşidəndə ürəyimdən oldu və dərhal müraciət etdim. Yaxşı ki, qəbul edildim. İşimdən çox razıyam”.

Ülkər xanım deyir ki, uşaqları valideynlərdən alıb, təlimin sonunda onlara təhvil verirlər: “Valideynlərlə birgə iclaslarımız olur, çox razılıq edir, uşaqları həvəslə gətirirlər. Elə balacalar da həvəslidirlər. Hiss olunur ki, tərbiyəçi-müəllimlərini də çox sevirlər. Əllərinə rəsmini alıb müəlliminin ətəyindən yapışanların gözlərindəki sevgini görməmək mümkün deyil. Müəllim Ulduz Əhmədova da bu sevgini qazanmaq üçün əlindən gələni edib. İlk növbədə onların qarşısına çıxana qədər yaxşıca hazırlaşıb. O, ailə və ev təhsili ixtisası üzrə Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecinin məzunudur. Sonra keçmiş Qafqaz Universitetində ixtisası üzrə təhsilini davam etdirib. Tərbiyəçi-müəllim olmaq üçün təlimlərə qatılıb və özünü təsdiq edib: “Bu ərazidə, üstəlik, bu uşaqların gələcəkdə oxuyacaqları məktəbdə belə bir layihənin icrası çox böyük uğurdur. Elə mənim üçün də çox uğurlu iş oldu”.

U.Əhmədova deyir ki, bir tərbiyəçi-müəllim kimi üzərinə düşən vəzifəni layiqincə icra edə bilmək üçün əlindən gələni əsirgəmir. Valideynlərlə yaxşı əlaqələr qurub: “Hər gün valideynləri məlumatlandırır, videolar çəkib onlarla da paylaşıram. Uşaqların inkişafını görmək onları da çox sevindirir”.




### “Bu layihə həm də məktəblərarası əlaqənin ən yaxşı nümunələrindəndir”

216 nömrəli tam orta məktəbdə həyata keçirilən layihənin rəhbəri, Məktəb-Lisey Kompleksinin direktoru Esmira Quliyeva: “Bu ərazidə məktəbəqədər təhsil səviyyəsində uşaqların təhsilə cəlbində problem olduğunu ötən ilin sentyabrında müşahidə etmişdim. Bir az sonra Elm və Təhsil Nazirliyinin elan etdiyi pilot proqramını görəndə çox sevindim. Bu məktəbin direktoru Səidə Rəhimova ilə danışıb layihəni qrant müsabiqəsinə təqdim etdim. Qalib 16 layihədən biri mənim hazırladığım təklif oldu”.

Ümumi təhsil sahəsində püxtələşən məktəb direktoru məktəbəqədər təhsil səviyyəsində həyata keçirdiyi layihəyə uyğunlaşmaqda xeyli əziyyət çəkib: “Ona görə xeyli araşdırdım, özüm də öyrəndim. İndi bu layihəni genişləndirməyi düşünürəm. Növbəti qrant müsabiqəsində bunun üçün yenidən müraciət edəcəyəm”.

### Məktəbəqədər qrupa 70-dən çox müraciət oldu, 20 nəfər seçildi

216 nömrəli tam orta məktəbin derektoru Səidə Rəhimova həyata keçirilən layihənin genişləndirilməsi üçün şərait yaratmağa hazırdır: “Qala hərbi şəhərciyinin yaxınlığında yerləşən bu ərazidə məktəbəqədər təhsil müəssisəsinə ciddi tələbat hiss olunur. Layihəyə başlamadan keçirdiyimiz sorğu da bunu göstərib. Qısa müddət ərzində 70-dən çox şəxs uşağını qrupa yerləşdirmək üçün müraciət edib. Məcburən ən tez müraciət edən 20 nəfəri qəbul etdik. Layihə özünü qısa müddətdə doğrultdu”.

Səidə xanım deyir ki, lazım gələrsə, daha bir otaq da ayıra bilər: “Tələbat olarsa, bu otağın yanındakı otaqdan da bu məqsəd üçün istifadə edə bilərik”.

Direktor ümumtəhsil müəssisəsində məktəbəqədər təhsil qrupu üçün tam şərait olduğuna əmindir: “Bu sinfin yerləşdiyi mərtəbədə V-VI sinif şagirdləri təhsil alırlar, onlar məktəbəqədər qrupun təlimlərinə mane olmurlar”.

### 216 nömrəli məktəb tək deyil

3-4 yaşlı uşaqların niyə bir məktəbdə, bir sinif otağında təlimə cəlb olunduğunu Elm və Təhsil Nazirliyi Satınalmalar və qrantlar sektorunun müdiri Vüsalə Əliyeva açıqlayıb. Onun sözlərinə görə, təmsil etdiyi qurum 2023-cü ildən alternativ məktəbəqədər təhsil xidmətlərinin təşkili üçün qrant elan edib. Qrant üçün müsabiqədə 16 layihə uğur qazanıb. Həmin layihələr müxtəlif - Bakı, Lənkəran, Şəki, Şirvan, Naxçıvan, Füzuli, Zaqatala, Masallı, Astara, Göygöldə icra olunur. Ümumilikdə qrant proqramına 500-dən çox uşaq cəlb edilib. Həmin layihələrdən biri məhz Qala qəsəbəsi 216 nömrəli tam orta məktəbdə reallaşdırılır. Layihənin mahiyyətinə diqqət çəkən V.Əliyeva bildirib ki, qrant proqramı çərçivəsində təhsilə cəlb edilən uşaqlar hər hansı məktəbəqədər təhsil müəssisəsində özünə yer tapmayanlardır: “216 nömrəli məktəbin əhatə etdiyi ərazidə də məktəbəqədər təhsil müəssiəsələri azdır. Bu ərazidə böyük tələbat açıq hiss olunmaqdadır”.

Layihə çərçivəsində 20 uşaq məktəbəqədər təhsilə cəlb olunub. Lakin tələbat çox olduğu üçün artıq ikinci qrupun təşkili üzərində düşünülür. V.Əliyeva qeyd edib ki, bu layihə hazırlanarkən icma əsaslı məktəbəqədər təhsil proqramının təcrübəsindən yararlanıblar: “Ancaq mütəmadi olaraq başqa yeniliklər də tətbiq ediləcək. Layihənin bu məktəbdə və, ümumiyyətlə, ölkə ərazisində genişləndirilməsi tələbatdan asılıdır. Hazırkı vəziyyət çox böyük tələbat olduğunu deməyə əsas verir. Odur ki, günün ikinci yarısında daha bir qrupun da məktəbəqədər təhsilə cəlbi mümkündür”.

V.Əliyeva onu da qeyd edib ki, sözügedən məktəbdə ikinci qrupun təşkili elə böyük vəsait tələb etmir: “Qrup dəyişəndə otaqda hər şey yerində qalacaq. Burada yalnız uşağa aid boya və ya başqa gigiyenik əşyalar dəyişəcək”.

Vüsalə Əliyeva “Azərbaycan müəllimi”nə onu da deyib ki, genişlənmə, sadəcə bir məktəbdə yox, bütün ölkə ərazisində ola bilər. Tələblə təklif uyğun gəlməyən yerlərdə belə layihələrin tətbiqi genişləndiriləcək: “Bu, pilot qrant proqramıdır. Həm icrası dövründə, həm də layihə başa çatdıqdan sonra təhlillər aparılacaq. Həmin təhlillər əsasında qərar veriləcək. Alternativ məktəbəqədər təhsil qrantlarının verilməsində müxtəlif səbəblərdən məktəbəqədər təhsilə cəlb olunmayan uşaqların çoxluq təşkil etdiyi ərazilərə üstünlük veriləcək”.

### “Məktəbəqədər təhsilin hədəflərinə bu sinifdə nail olacaqlar”

Bəs, bu sahənin mütəxəssisi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Xalidə Həmidovanın fikri nədir? Onun məktəbdə bir məktəbəqədər qrup üçün yaradılan şəraitlə bağlı iradı varmı?

İlk məktəbəhazırlıq qruplarında istifadə olunan dərsliyin müəlliflərindən biri olan X.Həmidova layihənin məqsədinə çatacağını düşünür: “Belə layihələr evdə, təhsildən kənarda qalan, hər hansı səbəbdən məktəbəqədər təhsil müəssisələrində təhsilə cəlb edilməyən, belə müəssisələrin olmadığı ərazilərdə yaşayan uşaqların təhsilə cəlb olunmasında çox faydalıdır. Nəzərə alsaq ki, insan ömür boyu əldə etdiyi bacarıqların 70 faizini məhz bu yaşda öyrənir, onda bu layihənin əhəmiyyətini təsəvvür etmək çətin olmaz. Odur ki, belə təşəbbüslər ancaq dəstəklənə bilər. Tərbiyəçi-müəllim bu sahədə peşəkar olmasa da, uşaqları sevir, özünü bu sahədə formalaşdırır. Onun təlimatlarını yerinə yetirən, uşaqlara sevgi ilə yaxınlaşan dayəni gördüm. Məqsədi, əsas vəzifəsi məktəbə və həyata uşaq hazırlamaq olan məktəbəqədər təhsilin hədəflərinə bu sinifdə nail olacaqlarını düşünürəm”.

### Valideynlər razıdır

Artıq saat 1-dir və 216 nömrəli tam orta məktəbin qarşısında valideynlər gözləyir. Onlardan biri qız atasıdır. “Atalar qızlarını daha çox sevir”, - deyən ata qızı üçün ən doğru qərarı verdiyinə inanır. Sosial şəbəkələrdə görüb, maraqlanıb, ətraflı araşdırdıqdan sonra qızını bu layihəyə qoşan Sahib Məmmədov Mələyin atasıdır: “Bağçaya gedirdi qızım. Bu layihə barədə eşidəndə araşdırdım ki, belə layihələr çox maraqlı olur. Götür-qoy etdim və Mələyi bağçadan çıxardıb bura gətirdim. Uşaq da indi daha həvəsli gəlir”.

Fərahim İsmayılov isə İbrahimin atasıdır: “Bir oğlum da məktəbdə birinci sinifdə oxuyur. Onu gətirəndə eşitdim layihə haqqında. Qərara gəldim ki, İbrahimi də gətirim. Növbəti tədris ilindən məktəbəhazırlıq qrupuna keçəcək”.

### Bağça məktəbə gəlir?

Mütəxəssislər hesab edir ki, erkən təhsil uşaqların həyatında müstəsna rol oynayır. Ona görə də uşaqların məktəbəqədər təhsilə cəlbi Elm və Təhsil Nazirliyinin prioritet istiqamətlərindəndir. Bu prioritet hədəfinə çatmaq üçün də müasir, tam təchiz edilmiş məktəb binaları vacib vasitə olacaq. Və beləcə, məktəbin həyatımızda rolu, əhəmiyyəti getdikcə daha da artacaq.

**Ruhiyyə DAŞSALAHLI**

# "Qarabağ Universiteti regionun elmi mərkəzinə çevrilmək potensialına malikdir"

## Polşalı professorlar "Azərbaycan müəllimi"nə Qarabağa səfər təəssüratlarını bölüşüblər

Yaxın günlərdə Polşanın Varşava Texnologiya Universitetinin professorları Artur Zbiciak və Nəbi İbadov Azərbaycanda səfərdə olublar. Onlar səfər çərçivəsində Bakıda bir neçə ali təhsil müəssisəsində maraqlı müzakirələr aparıblar. Həmçinin ziyarət əsnasında polşalı alimlərin Şuşa və Xankəndi şəhərlərinə də səfəri təşkil edilib. Onlar bölgədə növbəti tədris ilindən fəaliyyətə başlayacaq Qarabağ Universitetinə baxış keçirib, burada aparılan işlərlə tanış olublar.

"Azərbaycan müəllimi"nə Qarabağa səfər təəssüratlarını bölüşən Polşanın Varşava Texnologiya Universitetinin inşaat mühəndisliyi fakültəsinin elmi işlər üzrə dekan müavini, nəzəri mexanika və dəmir yolu mühəndisliyi kafedrasının müdiri **Artur Zbiciak** bildirib ki, Azərbaycan və Polşanın elm və təhsil müəssisələri arasında tələbə və müəllim heyətinin mübadiləsindən tutmuş birgə tədqiqat layihələri və konfranslara qədər bir çox əməkdaşlıq imkanları var.



"Biz Varşava Texnologiya Universitetinin mülki inşaat fakültəsinin əməkdaşları kimi tikinti, infrastruktur və tikintidə istehsal proseslərinin idarə edilməsi sahəsində əməkdaşlıqda xüsusilə maraqlıyıq. Azərbaycan və Polşa universitetləri arasında əməkdaşlıq bilik və texnologiya mübadiləsinə əhəmiyyətli töhfələr verə bilər. Bundan əlavə, həm Azərbaycanda, həm də Polşada modernləşdirmə planlarını nəzərə alaraq, təhsilə, yeni materiallara və davamlı inkişaf texnologiyalarına yönəlmiş birgə tədqiqat layihələri faydalı ola bilər" - deyə o qeyd edib.

Mütəxəssisin fikrincə, Qarabağ Universiteti bölgənin dinamik inkişafına töhfə verən elm və təhsil mərkəzinə çevrilmək potensialına malikdir.

"Universitet, eyni zamanda bölgənin sürətli bərpası və modernləşdirilməsində müasir texnologiyaların tətbiqi üzrə fikir mübadiləsi üçün önəmli bir platforma rolunu oynaya bilər. Bir çox texniki sahədə istedadları cəlb etmək üçün universitetin beynəlmiləlləşməsi məsələsi yaxın illərdə qarşıya qoyulan ən önəmli hədəflərdən biri olmalıdır. Universitet rəhbərliyi ilkin fəaliyyət dövründə, həmçinin mülki və nəqliyyat mühəndisliyi, kompüter texnologiyası və inşaat da daxil olmaqla investisiya proseslərinin idarə edilməsi kimi önəmli sahələrə diqqət yetirməklə yüksək akademik mövqeyə çatmaq üçün bütün səylərini cəmləşdirməlidir".

Polşanın Texnologiya Universitetinin inşaat mühəndisliyi fakültəsinin istehsalat mühəndisliyi və inşaat idarəetmə kafedrasının müdiri, azərbaycanlı professor, fəlsəfə doktoru **Nəbi İbadov** isə "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib ki, səfərimiz zamanı Memarlıq və İnşaat və Bakı Mühəndislik universitetlərinin rəhbərliyi və professor-müəllim heyəti ilə görüşüb, texniki laboratoriyaların imkanları ilə tanış olub, həmçinin potensial elmi əməkdaşlıq və təcrübə mübadiləsi məsələləri ətrafında müzakirələr aparıblar.

"Biz, həmçinin Xankəndi şəhərində fəaliyyət göstərəcək Qarabağ Universitetinin fəaliyyət istiqamətləri və qarşıya qoyulan hədəflər barədə məlumatlandıq. Qarabağ Universitetində innovasiyaların tətbiqi iqtisadi inkişafa öz müsbət təsirini göstərə bilər. Bu istiqamətdə atılacaq önəmli addımlardan biri mühəndislik, bərpa olunan texnologiyalar və təbii sərvətlərin idarə edilməsi kimi müasir ehtiyaclar ilə bağlı keyfiyyətli proqramların təmin edilməsidir. Çünki bu sahələr bölgənin uzunmüddətli inkişafı üçün çox önəmlidir. Bundan əlavə, müasir planlaşdırma konsepsiyalarının tətbiqi və inkişafı, tikinti layihələrinin təşkili və icrası, struktur dizaynı, nəqliyyat və dəmir yolu infrastrukturu da daxil olmaqla, mühəndisliyin müxtəlif sahələrində süni intellektdən istifadəni ehtiva edən proqramlar universitetin bu sahədə aparıcı mövqeyini gücləndirə bilər" - deyə o vurğulayıb.

**Oruc MUSTAFAYEV**

# Müasir dövrün təhsil modeli – TƏDQİQAT UNİVERSİTETİ

*Təlim prosesində əməkdaşlığın tətbiq edilməsi:* - Təlim prosesində əməkdaşlıq iki istiqamətdə həyata keçirilir: Müəllim-tələbə və tələbələrarası əməkdaşlıq.

Əməkdaşlığın hər iki formasının həyata keçməsində müəllimin rolu böyükdür. Onları ayrı-ayrılıqda izah edək:

*Müəllim-tələbə əməkdaşlığı:* Müəllim-tələbə əməkdaşlığı tələbələrin tədqiqatçılıq fəaliyyətinin ilkin şərtidir. Universitetlərdə tədris prosesində yeni innovativ metodların tətbiqi tələbələrdə tədqiqatçılıq bacarıqlarının formalaşması üçün geniş imkanlar açır.

Müasir təlim konsepsiyaları tələbələrə hazır bilik vermək deyil, onların müstəqil olaraq bilik əldə etməsi üçün şəraitin yaradılmasını tələb edir. Tələbəni müstəqil bilik əldə etmə prosesinə cəlb etdikdə müəllimin yeni, mentorluq funksiyası meydana gəlir. Mentorluq funksiyası tələbənin müstəqil olaraq bilik əldə etməsinə, səriştələrə yiyələnməsinə rəhbərlik etməkdir.

Müəllim mentor kimi tələbəyə rəhbərlik edərək, onu müstəqil olaraq, bilik və səriştələr əldə etməyə istiqamətləndirir. Bu isə yalnız müəllim-tələbə əməkdaşlığı çərçivəsində mümkündür. Tədqiqat universitetlərində isə bu əməkdaşlıq daha da aktuallaşır. Əməkdaşlıq prosesində fərdiləşmiş təhsili həyata keçirərək, tələbəyə informasiya əldə etməyin yollarını, rəqəmsal öyrənmə vasitələrindən istifadə etmək bacarıqlarını, tələbələr arasında əməkdaşlığı, müəllim və tələbə arasında əks əlaqəni təşkil etmək üçün yeni yolları açılır.

Müəllim-tələbə əməkdaşlığı müxtəlif yollarla həyata keçirilə bilər. Mühazirə məşğələlərində dialoq, əqli hücum, problem situasiyasının yaradılması və bu kimi metodlardan istifadə etdikdə tələbələr yeni biliyi "kəşf" edə bilirlər. Məşğələnin belə təşkili tələbələrdə analiz, sintez, müqayisə etmə, sistemləşdirmə, modelləşdirmə, ümumiləşdirmə, nəticə çıxarma və bu kimi əqli əməliyyatların inkişafına təkan verir. Bu əqli əməliyyatların inkişaf etdirilməsi tələbələrdə tədqiqatçılıq bacarıqlarının formalaşmasını şərtləndirir.

*Tələbələrarası əməkdaşlığı* isə seminar məşğələlərində həyata keçirmək imkanları daha genişdir. Düzdür kiçik mühazirə qruplarında (bir qrupdan ibarət olan) tələbələrarası əməkdaşlığı həyata keçirmək mümkündür. İki və ya üç qrupdan ibarət olan böyük birləşmələrin isə bu imkanları məhdud olur. Seminar məşğələlərində və kiçik mühazirə qruplarında interaktiv təlim metodlarının təşkili vasitəsilə tələbələrə yaradıcı tapşırıqlar verməklə onlarda tədqiqatçılıq bacarıqlarını aşılamaq üçün yeni üfüqlər açılır. Lakin tələbələr arasında əməkdaşlıq təkcə tədqiqatçılıq bacarıqlarını deyil, qrupla işləmək, bir-birindən öyrənmək,



**Hikmət ƏLİZADƏ,**
*BDU-nun professoru*

özünü təsdiq etmək, fikirlərini sübut etmək, idarəçilik və s. bacarıqlarının formalaşmasına da yol açır. Bu, həm tələbənin şəxsiyyət keyfiyyətlərinin, həm də kadr kimi hazırlanmasını daha da yaxşılaşdırır.

*Universitetin yaradıcılıq funksiyasının yaradılması:* - Ali təhsil müəssisəsinin tədqiqat universitetinə çevrilməsi və ya tədqiqat universiteti kimi fəaliyyət göstərməsi üçün onun kadr potensialı olmalıdır. Təbii ki, söhbət müəllim kadrlarından və onların alimlik potensialından gedir. Artıq alimlər yeni innovativ problemlər üzərində tədqiqatlar aparmalıdırlar. Uzun illər ərzində, xarici ölkələrdə aparılan hər hansı yeni elmi istiqamət alimlərimizin diqqətini cəlb etmiş, onların ideyalarından faydalanaraq tədqiqat aparmışlar. Təbii ki, bu yanaşma öz mövqeyini hazırda da saxlayır. Amma dünya üçün yeni olan tədqiqat istiqamətlərinin açılmasını da həyata keçirmək tələb olunur. Axı nə üçün biz ancaq xarici ölkə alimlərinin apardığı tədqiqatlara üstünlük verməliyik. Özümüz yeni tədqiqat istiqamətləri müəyyən edə bilmərik? Əlbəttə, bizim alimlərin bu imkanları var. Fikrimizcə bu yanaşmaya üstünlük versək, daha böyük nailiyyət əldə edə bilərik. Nə üçün biz "ilk"lərə imza atmamalıyıq? Məsələnin belə qoyuluşu universitetlərin yeni funksiyasının - yaradıcılıq funksiyasının yaranmasını şərtləndirir.

Yaradıcılıq funksiyası tədqiqat universitetinin fəaliyyətinin özəyini təşkil edir. Bu funksiya universitetin innovasiyalara imza atması üçün yol açır. İnnovasiyalar çoxaldıqca və istehsala tətbiq edildikcə universitetin nüfuzu artır. Universitet ölkənin inkişafına təkan verməyə başlayır, onun lazımlılıq dərəcəsi artır. O, cəmiyyətin texnoloji və sosial-iqtisadi sifarişini reallaşdırmağa başlayır. Bu onun

**II məqalə**

kadr hazırlığının da yaxşılaşması imkanlarını artırır. Nəticədə elm və təhsili birləşdirərək, onların vəhdətində elmi nəticələrin kommersiyalaşdırılması yolu ilə universitetin həm mənfəət əldə etmək, həm də innovativ bacarıqlara malik mütəxəssislər yetişdirmək imkanları çoxalır.

Tədqiqatlar innovativ məzmun daşıdıqca universitetdə yeni biliklərin yaranma prosesi reallaşmağa başlayır. Məsələn, Amerikanın, Yaponiyanın və başqa ölkələrin tədqiqat universitetləri məhz belə fəaliyyət sayəsində yeniliklərə imza atırlar. Bu gün dünyanın inkişafına nəzərəçarpacaq təsir edəcəyi gözlənilən "süni intellekt" ideyası universitetlərin bu cür fəaliyyəti nəticəsində yaranmışdır.

Müasir dövrdə tələbələrə tədricən daha çox dar ixtisas biliklərinin verilməsinə başlanmışdır. Amma unutmaq olmaz ki, hətta dar ixtisas sahələri üzrə biliklər belə indi həcm etibarı ilə çox genişdir. Bu universitetlərin yaradıcılıq funksiyasına qucaq açmasının nəticəsidir. Artıq hər bir dar ixtisas sahəsində yeni innovativ biliklər əldə olunur.

Yaradıcılıq funksiyası universitetin fəaliyyət sahəsini genişləndirir. Universitet müstəqil olaraq öz fəaliyyət sahəsinə innovasiyalar tətbiq edə bilir. Məsələn, tədris prosesini təkmilləşdirmək üçün müstəqil olaraq, modul təhsil proqramları hazırlaya bilər. Bu proqramların əsas mahiyyəti ondan ibarətdir ki, təhsilalanların əmək fəaliyyətinə daha asan adaptasiya olması üçün onlara peşə istiqamətində zəruri olan səriştələr aşılansın. Hər bir modulda tələbələrə müxtəlif problemləri praktik tapşırıqlar və qrupla iş forması vasitəsilə həyata keçirdikdə daha yaxşı nəticələr əldə olunur.

Modul təhsil proqramları ilə yanaşı, universitetlər konstruktor büroları, biznes inkubatorları və başqa biznes strukturları yaratmaq imkanına malik olur. Bu strukturların yaranması elmi işlərin kommersiyalaşması məqsədi daşısa da, onların fəaliyyətinə müəllimlər tədqiqatçılıq qabiliyyətinə yiyələnmiş yuxarı kurs tələbələrini də cəlb edə bilirlər. Tədrisin belə təşkili nəticəsində tələbələrin həm tədqiqatçılıq bacarıqları inkişaf edir, həm də innovasiyaların yaradılmasında onlar pay sahibi olurlar. Bu, onların yaradıcı fəaliyyətinin daha da genişlənməsi üçün stimul yaradır.

*Tələbələrin biliyi ilə yanaşı səriştələrinin qiymətləndirilməsi.* Yuxarıda qeyd edilən şərtlər qiymətləndirmənin düzgün təşkil edildiyi vaxt daha səmərəli xarakter daşıyır. Lakin onu qeyd etmək zəruridir ki, ali təhsil müəssisələrində qiymətləndirmə strategiyasının təkmilləşdirilməsinə ehtiyac vardır. Bu gün ali məktəblərin əksəriyyətində semestr imtahanlarında tələbələrin yalnız biliyi yoxlanılır. Halbuki, tələbənin biliyi ilə yanaşı səriştələrinin qiymətləndirilməsi tələb olunur. Bu, həm də tədqiqat universitetlərinin tələbidir.

Ali məktəbdə dünya təcrübəsində uğurla tətbiq edilən diaqnostik, formativ və summativ qiymətləndirmədən istifadə etmək daha məqsədəuyğun olardı. Əslində bugünkü qiymətləndirmə sistemində bu və ya digər dərəcədə bu qiymətləndirmə formalarından istifadə imkanları var və qabaqcıl müəllimlər ondan yararlanırlar.

İlk məşğələlərdə müxtəlif suallarla tələbələrin bilik səviyyələrini müəyyən etmək o qədər də çətin deyil. Təbii ki, belə yoxlamadan sonra fənnin tədrisini daha səmərəli həyata keçirmək üçün müvafiq metodika və texnologiyaları müəyyən etmək asanlaşır.

Semestr ərzində tələbələrlə seminar və laborator məşğələlər, sərbəst işlər həyata keçirilir. Bu məşğələlərdə tələbələrlə formativ qiymətləndirmənin həyata keçirilməsi imkanları genişdir. Qeyd olunan məşğələ formalarında tələbələrin biliklərini yoxlamaqla bərabər, onların bu bilikləri tətbiq edə bilmələrini, analiz-sintez və s. bacarıqlarının yoxlanmasına yönəldikdə uğurlu nəticələr əldə olunur. Bu zaman interaktiv təlim metodları - əqli hücum, problemli situasiyanın yaradılması, qruplarla iş, layihə, müzakirə, dialoq və s. metodlar vasitəsilə müəllim tələbələrin inkişafını izləmək imkanı əldə edir.

Hər bir semestr ərzində tələbələrlə keçirilən kollokviumları (semestr ərzində bakalavriat səviyyəsində hər bir qrupda üç, magistratura səviyyəsində isə iki kollokviumun keçirilməsi nəzərdə tutulub), semestrin sonunda isə imtahan təşkil olunur. Qiymətləndirmənin bu formalarını summativ yoxlama kimi dəyərləndirə bilərik. Qabaqcıl müəllimlər kollokviumlar zamanı müxtəlif texnologiyalardan istifadə edərək, tələbələrin həm bilik, həm də səriştələrini yoxlaya bilirlər. İmtahanlarda isə hələlik yalnız bilik yoxlanılır. Fikrimizcə, ali məktəblərdə imtahanların keçirilmə texnologiyasının təkmilləşdirilməyə ehtiyacı var.

*Təhsil prosesində ənənəvi (əyani) dərslərlə bərabər onlayn dərslərin, həmçinin distant təhsilin imkanlarından istifadə edilməsi.* Onlayn dərs anlayışı ölkəmizdə pandemiya dövründə təhsil həyatına və pedaqoji leksikologiyaya daxil oldu. Onun üstünlükləri ilə yanaşı, nöqsanları da az olmadı. Əsas nöqsanı kimi tələbələrin dərsdə lazımi səviyyədə iştirak etməməsi və internet resurslarının tələblərə uyğun olmaması idi. İkinci çatışmazlıq obyektiv səbəb idi, onu aradan qaldırmaq mümkündür və heç də bütün hallarda bu çatışmazlıq böyük xətalar yaratmırdı, internetdə, xüsusən yükləndiyi hallarda, çətinliklər yaranırdı. Amma birinci səbəb təhsilin keyfiyyətinə köklü dərəcədə təsir göstərdi.

Amma bütövlükdə onlayn dərslər təhsil sferasında inklüzivlik imkanlarının geniş olduğunu göstərdi. Hətta bu gün mətbuat səhifələrində qarışıq dərslərin - həm əyani, həm də onlayn dərslərin keçirilməsi təqdir olunur. Bu fikri biz də dəstəkləyirik. Məsələn, fikrimizcə, ilk dövrlərdə tədqiqat universitetlərində cədvəl üzrə dərsləri (mühazirə və seminar məşğələlərini) ənənəvi formada, fərdi işləri isə onlayn formada təşkil etmək mümkündür. Tələbə ilə birlikdə həyata keçirilən tədqiqatlarda isə onlayn görüşlərin təşkili faydalı ola bilər. Konstruktor büroları, biznes inkubatorlarının və digər tədqiqat və biznesyönümlü fəaliyyətləri də onlayn formada həyata keçirmək mümkündür. Onu qeyd edək ki, bu gün artıq qabaqcıl müəllimlər dərsdənkənar məşğələ kimi həyata keçirdikləri məsləhət saatlarını (ilboyu seminar məşğələlərinə hazırlaşarkən) onlayn platforması əsasında həyata keçirirlər. Düşünürük ki, tədris prosesində ənənəvi və onlayn formatın qarışıq təşkili bu gün üçün təhsilin səmərəli təşkili baxımından faydalı ola bilər.

Dünya ali məktəblərində distant təhsil formasından da geniş istifadə olunur. Distant təhsilin təşkili inklüzivliyi daha çox artırır. Bu gün distant təhsil təkcə ali təhsil sahəsində deyil, cəmiyyətin müxtəlif sferalarında - işləyənlərin istehsalatdan ayrılmamaqla (iş saatının 1-2 saat qısaldılması şərti ilə) ixtisaslarını artırmaq, onlara yeni tədqiqatlar, texnologiyalar, iş üsulları və s. haqqında məlumatların verilməsi baxımından istifadə olunur. Bu fəaliyyət universitetin maliyyə resurslarını artırmaqla bərabər, cəmiyyət həyatında, işçilərin inkişafında rolunu artırır. Fikrimizcə, bu yaxşı yanaşmadır, artıq onu həyata keçirmək mümkündür. Bunun üçün universitetlərin nəzdində tədris studiyalarından ibarət olan distant təhsil mərkəzlərinin yaradılması vacibdir.

### Son söz əvəzi

Ölkəmizdə ali təhsilin inkişafının növbəti mərhələsi tədqiqat universitetlərinin yaradılmasını tələb edir. Bu istiqamətdə universitetlərimizdə innovativ işlər həyata keçirilir. Fikrimizcə, yaxın gələcəkdə tədqiqat universitetlərinin fəaliyyətini müşahidə edə biləcəyik. Hesab edirik ki, həmin universitetlərin yaradılması ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasını şərtləndirəcəkdir. Bu vəzifənin öhdəsindən gəlməklə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsil qarşısına qoyduğu tələbləri tam yerinə yetirilmiş olarıq.

# MDU-da günəş enerjisi paneli quraşdırılıb

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində reallaşdırılan tədbirlər çərçivəsində Mingəçevir Dövlət Universitetində (MDU) günəş enerji panelindən istifadəyə start verilib. Universitetdən AZƏRTAC-a bildirilib ki, ali məktəbin əsas tədris korpusunun həyətində quraşdırılan günəş panelinin istifadəyə verilməsi mərasimində çıxış edən MDU-nun rektoru Şahin Bayramov günəş enerjisi panelini "yaşıl enerji" konseptinin real nəticələrindən biri kimi dəyərləndirib. O, həmçinin "Mingəçevir Dövlət Universiteti 2030: İnkişaf Strategiyası"na uyğun olaraq, MDU-nun yeni dövrün universitetinə çevrilməyi və davamlı inkişaf əsaslı ali təhsil müəssisəsi olmağı hədəflədiyini bildirib.



"Günəş paneli "davamlı inkişaf təfəkkürlü" və "yaşıl düşüncəli" vətəndaş yetişdirmək missiyasının reallaşdırılmasına mühüm töhfə verəcək. Açıq havada laboratoriya funksiyasını yerinə yetirəcək enerji panelinin "Energetika" və "Energetika mühəndisliyi" ixtisaslarında kadr hazırlığının keyfiyyətinin yüksəldilməsində də əhəmiyyətli rol oynayacaq", - deyə rektor diqqətə çatdırıb.

AMEA-nın birinci vitse-prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov son dövrlərdə MDU-nun müasirləşdirilməsi istiqamətində aparılan sistemli fəaliyyətlərindən danışıb. O, ölkənin elektroenergetika mərkəzi hesab olunan Mingəçevir şəhərində günəş enerjisi panelinin istifadəyə verilməsinin yüksək önəm kəsb etdiyini vurğulayıb. Akademik, dövlətimizin başçısı tərəfindən bərpaolunan enerji resurslarından istifadənin artırılmasına göstərilən diqqət və qayğıdan söz açıb, yaşıl enerji sahəsinin inkişafı məqsədilə yüksəkixtisaslı kadr hazırlığının məzmununun modernləşdirilməsinin vacibliyini bildirib.

Türkiyənin Qazi Universitetinin MDU-da fəaliyyət göstərən qonaq professoru Cemal Yılmaz günəş enerjisi panelinin iş mexanizmi və universitet daxilində istifadə üçün generasiya olunacaq elektrik enerjisinin miqdarı barədə ətraflı məlumat verib. O, növbəti mərhələdə günəş enerjisi panelinin əhatə dairəsinin artırılması üçün atılacaq addımlardan danışıb, Azərbaycanda yaşıl enerji istiqamətində reallaşdırılan fəaliyyətlərə göstərilən dövlət dəstəyinin yaratdığı geniş imkanlardan bəhs edib.

Sonra günəş enerjisi paneli istifadəyə verilib, tədbir iştirakçıları paneli real iş rejimində izləyiblər.

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan nəşriyyatı" MMC, 9-cu mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 518 **Sifariş** 1049
**Məsul növbətçi:** O.Mustafayev

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

## Gəncə Dövlət Universiteti

aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

**Fakültələr üzrə boş olan vəzifələr:**

Riyaziyyat-İnformatika - dekan;

**Kafedralar üzrə boş olan vəzifələr:**

1. Azərbaycan dili - kafedra müdiri; professor, 1 yer; dosent, 4 yer;
2. Azərbaycan tarixi - kafedra müdiri;
3. Qrammatika və ingilis dilinin tədrisi - baş müəllim, 1 yer;
4. İnformatika və cəbr - baş müəllim, 4 yer;
5. Psixologiya - dosent, 2 yer; baş müəllim, 2 yer;
6. Təhsilin pedaqogikası və metodikası - dosent, 1 yer; baş müəllim, 1 yer;
7. Musiqi fənləri - baş müəllim, 3 yer;
8. Bədən tərbiyəsi və idman - baş müəllim, 2 yer;
9. Ümumi riyaziyyat - baş müəllim, 1 yer;
10. Menecment və turizm işi - baş müəllim, 2 yer;
11. Kimya - dosent, 1 yer; baş müəllim, 2 yer;
12. Botanika - baş müəllim, 2 yer;
13. Anatomiya, fiziologiya və zoologiya - dosent, 1 yer; baş müəllim, 1 yer;
14. Riyazi analiz - dosent, 2 yer; baş müəllim, 1 yer;
15. Praktik xarici dillər - baş müəllim, 1 yer;
16. Ümumi tarix - dosent, 1 yer; baş müəllim, 3 yer;
17. Azərbaycan və dünya ədəbiyyatı - dosent, 1 yer;
18. Ümumi pedaqogika - baş müəllim, 1 yer; müəllim, 1 yer;
19. Coğrafiya - baş müəllim, 1 yer;
20. İqtisadiyyat - dosent, 1 yer; baş müəllim, 1 yer;
21. Rus dili - dosent, 1 yer;
22. Leksika və ölkəşünaslıq - müəllim, 1 yer;
23. Fizika - dosent, 1 yer; baş müəllim, 2 yer;
24. Ekologiya və təbiəti mühafizə - dosent, 1 yer;
25. Sosial fənlər - müəllim, 1 yer.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması" və 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**Ünvan:** AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.
Gəncə Dövlət Universiteti, əsas bina (I)
**Telefon:** (022) 266-01-89

**REKTORLUQ**



## Etibarsız sayılır



**Gəncə şəhər** 40 nömrəli tam orta məktəbin IX sinfini 1988-ci ildə bitirmiş Məmmədov Afis Aprel oğluna verilmiş B-377302 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Cumakənd kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Məmmədov Muxtar Şahin oğluna verilmiş E-070050 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən rayon** Təzəkənd kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Qurbanov Yadigar Fərman oğluna verilmiş A-044776 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Məmmədov Nahid Nəsimi oğluna verilmiş C-245183 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır .

**Masallı rayon** Yolağac kənd ümumi orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Heydərov Asim Bəhram oğluna verilmiş 458346 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Hacıqasımlı kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Qasımov Şövqi Şahin oğluna verilmiş E-115948 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 246 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Rüstəmov Söhbət Tofiq oğluna verilmiş A-297242 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2022-ci ildə Abbasova Mədinə Yunis qızına verilmiş C-154682 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2023-cü ildə Əliyeva Möminə Şimşək qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2022-ci ildə Niftəliyeva Ləman Rövşən qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Tahirova Gülnarə Nəriman qızına verilmiş 080666 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 89 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Seyidov Adəm Cavid oğluna verilmiş E-566999 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**13 nömrəli internat məktəbin** (indiki 8 nömrəli sanatoriya tipli internat məktəbi) IX sinfini 1994-cü ildə bitirmiş Həsənov Rəşad Ramiz oğluna verilmiş B-148631 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2009-cu ildə Quliyev Anar Aydın oğluna verilmiş BC-176830 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 125 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Məcidova Əsmətxanım Vaqif qızına verilmiş A-003564 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Cabbarov Elnur Aydın oğluna verilmiş B-637751 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 32 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əsədov Nicat Qurban oğluna verilmiş B-604864 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Xırmandalı kənd 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əzimova Aidə Zakir qızına verilmiş E-750635 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Tibb Məktəbi** tərəfindən 2004-cü ildə Həşimova Aynur Dadaş qızına verilmiş AB-II-093568 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 6 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Hənifəyeva (Məmmədova) Leyli Oktay qızına verilmiş B-219961 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2018-ci ildə Əliyeva Nuray Sərxan qızına verilmiş C-012343 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2023-cü ildə İskəndərli Rağib Namiq oğluna verilmiş C-184591 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2023-cü ildə Nağızadə Orxan Rüfət oğluna verilmiş C-184558 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 21 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Xəlilova (Əliyeva) Nərmin Zülfiqar qızına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.V.Lomonosov adına Moskva Dövlət Universiteti** (Bakı filialı) tərəfindən 2023-cü ildə Ağayev Rauf Yavər oğluna verilmiş 523 /1MND nömrəli tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Yaqubova Nargilə Sənan qızına verilmiş B-422845 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Mahmudkənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Nağıyeva Əfsanə İbrahim qızına verilmiş A-210339 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 109 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Dadaşov Hənifə Bəxtiyar oğluna verilmiş A-174255 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** 3 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Əliyeva Nurlanə Seyidməmməd qızına verilmiş B-269682 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 210 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Mamedova Baqdad Minkailovnaya verilmiş 683684 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Həsənov Vüqar Aydın oğluna verilmiş B-002202 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2021-ci ildə Zeynallı Sənan Azad oğluna verilmiş C-126148 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 3 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Rüstəmzadə Asəf Asim oğluna verilmiş A-445615 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2021-ci ildə Nəcəfov Fərid Dilsuz oğluna verilmiş C-105025 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 226 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Əsgərzadə Azad İltifat oğluna verilmiş E-138361 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 10 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Cəbrayılova (Rzayeva) Sevər Adil qızına verilmiş A-165845 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Mamusta kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Quliyeva (Cabbarzadə) Məsumə Vaqif qızına verilmiş A-168321 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universitetinin Kolleci** tərəfindən 2022-ci ildə Abbaszadə Zeynəb Şücayət qızına verilmiş AA-177710 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Alpan kənd tam orta məktəbi 2020-ci ildə bitirmiş Əliyev Ümid Cabir oğluna verilmiş E-311529 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Sosial İqtisad Kolleci** tərəfindən 2015-ci ildə Cabbarova Günel Abbas qızına verilmiş AA-058329 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 213 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Məmmədov Eltun Elnur oğluna verilmiş E-196254 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əsədova (Kazımova) Fəridə Kərəm qızına verilmiş B-194012 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Təzəkənd kənd tam orta məktəbi 1988-ci ildə bitirmiş Abbasova (Qədəşova) Xatirə Ziyad qızına verilmiş A-384540 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bülbül adına Orta İxtisas Musiqi Məktəbini** 2012-ci ildə bitirmiş Cavadzadə Murad Camal oğluna verilmiş A-129426 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qovlar şəhər humanitar liseyi 2020-ci ildə bitirmiş Əsgərov Elcan Elman oğluna verilmiş E-330944 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 3 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Məmmədov İdrak Ziyafət oğluna verilmiş A-189846 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 51 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Baxşəliyeva Lamiyə Baxşəli qızına verilmiş B-564448 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Üçbulaq kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Əsədov Murtuzəli Əfqan oğluna verilmiş B-469323 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 1999-cu ildə Çərkəz-zadə Rəcəb Mustafa oğluna verilmiş AB-I-040839 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Əliyev Mətin Nizami oğluna verilmiş E-020248 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** tərəfindən 1979-cu ildə Seyidova Məhbubə Yusif qızına verilmiş Y-052234 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2010-cu ildə Ayşegül Akdoğan Keskinə verilmiş B-021342 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialı** tərəfindən 2009-cu ildə Cəfərova Lalə Haqverdi qızına verilmiş B-109045 nömrəli diploma əlavə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasının əməkdaşları Fəxrəddin Veysəlli, Əsgər Quliyev, Azad Məmmədov, Cəmil Babayev və Solmaz Köçərli universitetin Azərbaycan dilçiliyi kafedrasının dosenti

**FAZİL ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.